7 yanvar 2022 №1 (1874) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## 2022-ci il də Azərbaycan üçün uğurlu olacaq



Bütün dünya İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul etdi. Hesab edirəm ki, müharibədən sonra cərəyan edən proseslər bizim haqlı olduğumuzu bütün dünyaya bir daha sübut etdi. Bunun çox böyük əhəmiyyəti var. Çünki İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı əsassız ittihamlar səsləndirilirdi. Bu əsassız ittihamların heç birinin real təsdiqi olmadı və müharibədən sonrakı dövr bunu bir daha göstərdi. Ona görə müharibə reallıqlarını, müharibədən sonrakı reallıqları qəbul etdirmək, hesab edirəm ki, siyasi baxımdan çox önəmli hadisə kimi sayıla bilər.

Prezident İlham Əliyev bu sözləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa təbrik müraciətində deyib.

Dövlət başçısı vurğulayıb ki, 2021-ci il ölkəmiz üçün uğurlu il olub: "İl ərzində qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün daha güclü Azərbaycan dünyada tanınır".

davamı səh. 2-də

## Ölkəmiz dünyada mədəniyyətlərarası dialoq məkanı kimi tanınır

Prezident İlham Əliyev İsa Peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik edib.

Təbrikdə qeyd edilir ki, min illərdir Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları qarşılıqlı hörmət və etimad mühitində, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Sivilizasiyaların qovşağında yerləşən Azərbaycan dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs üçün doğma vətəndir.

səh. 2

## Türk dünyası təşkilatları Qazaxıstandakı vəziyyətlə bağlı bəyanatlar yayıb

Yanvarın ilk günlərindən Qazaxıstanda yaşanan və faciəvi fəsadlara yol açan olaylar dünya gündəminin aparıcı mövzusudur. Türk dünyası təşkilatları da qurucu üzvlərindən biri olan ölkədə baş verənləri ciddi narahatlıqla izləyirlər.

Türk Dövlətləri Təşkilatı yanvarın 6-da Qazaxıstandakı vəziyyətlə bağlı bəyanat yayıb.

"Türk Dövlətləri Təşkilatına üzv dövlətlər olaraq baş verən son hadisələrin fonunda biz Qazaxıstanda sülh və sabitliyə əhəmiyyət verdiyimizi vurğulayır və üzv ölkəmiz Qazaxıstanla güclü həmrəyliyimizi ifadə edirik. Qardaş qazax xalqının sağlam düşüncəsinə və vəziyyətin normallaşmasını arzuladığına güvənirik.

davamı səh. 2-də

# "Şuşa İli"miz, Şuşalı ilimiz xeyirli olsun...

Azərbaycan mədəniyyətinin beşiyi, görkəmli musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin vətəni olan Şuşa təməli qoyulduğu vaxtdan bu yana – bütün dövrlərdə Azərbaycanın tarixində xüsusi yerə sahib olub. Qala-şəhər hər zaman Qarabağda varlığımızın və geniş anlamda Azərbaycanın suveren, sərhədi bütöv dövlət kimi varlığının göstəricisi sayılıb.

Ümummilli lider Heydər Əliyev Şuşanın tarixi əhəmiyyətini belə ifadə etmişdi: "Şuşa Azərbaycanın ən əziz guşəsidir. Bu, Azərbaycan xalqının yaratdığı sadəcə bir şəhər deyil, böyük bir tarixi abidədir. Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Şuşanın işğal altında qaldığı 28 il ərzində – hər ilimiz, hər ayımız, Qarabağı düşündüyümüz hər günümüz onunla bağlı olub. Tarixi yurd yerlərimizdən söz düşəndə ən böyük diləyimiz o ucalığa ünvanlanıb. Şuşasız heç bir ilimiz olmayıb, ona əlimiz çatmasa, ünümüz yetməsə də...

Çünki Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan tam deyildi, ola bilməzdi. Şuşasız 28 ili bu inamla yaşadıq, bu itki ilə heç vaxt barışmadıq. 2020-ci ilin 8 noyabr Zəfəri ilə bunu yağı düşmənə də, bütün dünyaya da göstərdik.

Zəfər ruhu ilə yaşadığımız 2021-ci ildə əsarətdən qurtulan yurd yerlərimizin dirçəlişinin təməli qoyuldu. Azərbaycan 2021-ci ili Qarabağla, Şuşa ilə yaşadı. Vətən torpaqları otuzillik barbar zülmündən sonra yaralarını sarımağa, özünə gəlməyə, Şuşa da illərin ayrılığından sonra Azərbaycan mədəniyyəti ilə nəfəs almağa, dirçəlməyə başladı. 2022-ci il isə bu tarixi dirçəlişin həlledici dövrü olacaq. Şuşa ilə bərabər külli Qarabağda...

Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ili "Şuşa İli" elan edib. Dövlət başçısı bunu müjdəni ilk olaraq 2021-ci ilin son dəqiqələrində – yeni il gecəsi xalqa verdi. Yanvarın 5-də isə Prezident bununla bağlı müvafiq sərəncam imzaladı.

"Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır" – sərəncam bu sözlərlə başlanır.





Qeyd olunur ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçib, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlayan Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalıb. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılıb.

"Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu", – deyə sərəncamda vurğulanır.

Diqqətə çatdırılır ki, Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilib, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılıb.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Dövlət başçısı Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq 2022-ci ili Azərbaycan Respublikasında "Şuşa İli" elan edib.

Sərəncamda Nazirlər Kabinetinə "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

"Şuşa İli"miz, Şuşalı ilimiz, Şuşa ilə, Qarabağla dirçəliş yolumuz xeyirli, uğurlu olsun...

# "Xəyalımız üzəydi sevda dənizlərində..."

Yanvarın 6-da XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, 30-cu illər repressiyasının qurbanı Mikayıl Müşfiqin vəfatından 84 il ötdü.

Nakam şairin anım günündə Xızı rayonunun Sayadlar kəndində, Mikayıl Müşfiqin Xatirə Muzeyinin qarşısında tədbir keçirilib. Ölməz şairin büstü ətrafına toplaşan şairlər, yazıçılar, elm və incəsənət xadimləri Mikayıl Müşfiqin həyat və yaradıcılığı haqqında danışıb, onun ədəbiyyatımızda tutduğu mövqedən, lirikasının səciyyəvi cəhətlərindən söhbət açıblar.



Əməkdar müəllim, şair Ofeliya Babayeva, Sumqayıt Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyi üzrə baş məsləhətçisi Mövsüm Bağırov, filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu, Mikayıl Müşfiqin əmisi nəvəsi Vahab İsmayılzadə və başqaları çıxış edərək şairin yaradıcılığının gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizə vətənpərvərlik hisslərinin aşılanmasında əvəzsiz xəzinə olduğunu bildiriblər.

Qeyd olunub ki, Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır. Adını Azərbaycan poeziyası tarixinə qızıl hərflərlə yazdırmağı bacaran şairin şeirləri dillər əzbəridir. Müşfiqin "Yenə o bağ olaydı", "Oxu, tar" və başqa şeirləri poeziya xəzinəmizin inciləri sırasındadır.

davamı səh. 2-də



## "Yeni ilin arzu medalyonu"

Heydər Əliyev Sarayında uşaqların sevimli qəhrəmanlarının iştirakı ilə interaktiv "Yeni ilin arzu medalyonu" adlı musiqili nağılın premyerası olub.

səh. 3

## Nizami yubileyindən xatirə

Nizami Gəncəvinin 880 illiyi münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən xatirə nişanı təsis edilib.

Xatirə nişanı "Nizami Gəncəvi İli"ndə öz yaradıcılığı, fəaliyyəti ilə fərqlənən mədəniyyət, incəsənət, ədəbiyyat və elm xadimlərinə təqdim olunur. Ötən ilin son iş günü, dekabrın 30-da Azərbaycan Milli Kitabxanasında bir qrup incəsənət xadiminə "Nizami Gəncəvi-880" xatirə nişanının təqdimetmə mərasimi keçirildi.



Bildirildi ki, Nizami əsərlərində bütün fikrini cəmiyyətə, insanlar arasında münasibətlərin tənzimlənməsinə yönəldib.

səh. 3

## Sənətinin ustadı

Hər bir film sənət duyumu güclü, fərdi istedadı, bacarığı böyük olan sənətkarlar sayəsində məşhurlaşır, sevilir, baxılır. Eləcə də aktyorlar oynadıqları ekran əsərləri ilə məşhurluq qazanırlar. Əməkdar artist, Dövlət mükafatı laureatı Səməndər Rzayev də teatrla bərabər kinoda yaratdığı rolları ilə də tanındı, sevildi.



Aktyorun filmoqrafiyasında 60-dan çox ekran əsəri var. Onların içərisində bədii filmlərlə yanaşı "Mozalan" satirik kinosüjetlərinə çəkildiyi rollar, həmçinin dublyaj redaksiyasında səsləndirdiyi obrazlar var.

səh. 7

## Bakı Uşaq və Gənclər Teatrı şəhid övladları üçün şənlik keçirib



səh. 5

## "Muzeyin kolleksiyaları necə qorunur?"

Azərbaycan Milli Xalça Muzeyində ustad dərsi

səh. 3



## "Dubay Ekspo"dakı Azərbaycan pavilyonunda təqdimatlar

səh. 8

# Prezident Milad bayramı münasibətilə pravoslav icmasını təbrik edib

Prezident İlham Əliyev İsa Peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik edib.

Təbrikdə qeyd edilir ki, min illərdir Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları qarşılıqlı hörmət və etimad mühitində, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Çoxəsrlik tolerantlıq ənənələrinin mövcud olduğu cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi həyata keçirilən dövlət siyasətinin başlıca məqsədlərindəndir.

"Bu gün ölkəmiz haqlı olaraq dünyada konfessiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır. Sivilizasiyaların qovşağında yerləşən Azərbaycan dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs üçün doğma vətəndir. Məmnuniyyət hissi ilə vurğulamaq istəyirəm ki, ölkəmizdə yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələri, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edərək vətəndaşlıq borcunu layiqincə yerinə yetirir, ümumi evimiz Azərbaycanın çiçəklənməsi və tərəqqisi naminə qüvvə və bacarıqlarını əsirgəmirlər", – deyə dövlət başçısının təbrik müraciətində vurğulanır.

Milad bayramının yeniliyin, əmin-amanlığın, insanlar arasında mərhəmət və şəfqət duyğularının rəmzi kimi hər il ölkəmizdə qeyd olunduğunu bildirən dövlətimizin başçısı təbriki bu sözlərlə bitirir: "Bu müqəddəs bayram münasibətilə bir daha hamınıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram".

# Türk dünyası təşkilatları Qazaxıstandakı vəziyyətlə bağlı bəyanatlar yayıb

əvvəli səh. 1-də

Qazaxıstan rəsmilərinin sülh yolu ilə gərginliyi azaltmaq, asayiş və sabitliyi yenidən bərpa etmək gücünə malik olduğuna inanırıq. Qazaxıstan hökumətinə və xalqına lazım ola biləcək hər cür dəstəyi verməyə hazır olduğumuzu bəyan edirik", – deyə bəyanatda vurğulanır.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY Qazaxıstanda yaşanan olayları üzüntü ilə izlədiyini bəyan edib.

TÜRKSOY-un saytında yayımlanan bəyanatda vurğulanır ki, müstəqillikdən bu günə Qazaxıstan xalqının inşa etdiyi sülh, əmin-amanlıq və sabitlik ortaq gələcəyimiz üçün son dərəcə önəmlidir. "Qazaxıstan hakimiyyətinin və xalqının bu çətin günlərin öhdəsindən gələcəyinə inamımız tamdır", – deyə bəyanatda qeyd olunur.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da təşkilatın qurucu üzv dövləti Qazaxıstan Respublikasında baş verən hadisələri ciddi narahatlıqla izləməkdədir.

Fondun bəyanatında deyilir: "Biz əminik ki, çoxəsrlik qədim ənənələrə malik qardaş qazax xalqı ona xas olan müdriklik ilə bu çətinlikləri geridə qoyacaq və Türk dünyasının, Türk birliyinin sütunlarından biri olan Qazaxıstan hər zaman olduğu kimi mənəvi, mədəni zənginliyi ilə sülh və əmin-amanlıq şəraitində inkişaf edərək daha böyük uğurlar qazanacaqdır. Daima Qazaxıstanın yanında olduğumuzu ifadə edərək tezliklə sabitliyin bərpasına dərindən inanırıq, qardaş qazax xalqına xoşbəxtlik və firavanlıq arzu edirik".

# Azərbaycan və Türkiyə XİN başçıları Qazaxıstandakı vəziyyəti müzakirə ediblər

Yanvarın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazirlər Qazaxıstanda mövcud olan vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Sergey Yesenin adına mərkəzdə rusiyalı qonaqla görüş



AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Sergey Yesenin adına Azərbaycan-Rusiya ədəbi əlaqələr mərkəzində Rusiya Yazıçılar Birliyinin sədr müavini, "Veçe" nəşriyyatının baş redaktoru, Əməkdar mədəniyyət işçisi Sergey Dmitriyev ilə görüş keçirilib.

Mərkəzin müdiri, filologiya üzrə fəlsəfə doktoru Natəvan Mustafayeva çıxış edərək böyük şairin vaxtilə Bakıya gələrkən yaşadığı, sonralar Sergey Yeseninin Ev-Muzeyi kimi fəaliyyət göstərən bu məkanın iki ölkə üçün dostluq rəmzinə çevrildiyini vurğulayıb. O, S.Yeseninin yaradıcılığı ilə bağlı maraqlı məqamlardan da söz açıb.

Sergey Dmitriyev "Yeseninin müəmmalı ölümü" mövzusunda məruzə ilə çıxış edib. O, S.Yeseninin intihar etməsi faktının yanlış olduğunu və uzun illər apardığı axtarışlar zamanı üzə çıxardığı bir çox arqumentlərə söykənərək şairin həyatına qəsd edilməsini sübuta yetirməyə çalışdığını söyləyib, iştirakçıların suallarını cavablandırıb.

Muzeyin ekspozisiyası ilə tanışlıqdan sonra qonaq müəllifi olduğu kitabları mərkəzə hədiyyə edib, rəy kitabına ürək sözlərini yazıb.

# İslam mədəniyyəti ilə bağlı abidələr, inanc və ibadət yerləri diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 6-da Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.



Məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. Qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı.

Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün müasir konsepsiya hazırlanıb və yeni bina inşa olunub.

İndi məsciddə eyni zamanda 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Məscid kompleksini diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir. Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb.

Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.

# 2022-ci il də Azərbaycan üçün uğurlu olacaq

## "Ölkəmizdə mövcud olan həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək"

əvvəli səh. 1-də

Prezident ötən il ölkəmizin beynəlxalq arenada öz mövqelərini möhkəmləndirdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan 2019-cu ildən Qoşulmama Hərəkatına sədrlik edir. Ötən il üzv dövlətlər yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq bizə böyük etimad göstərib. 2021-ci ildə Azərbaycan Türk Şurasına sədrliyi uğurla başa vurub. Noyabr ayında İstanbulda keçirilmiş sammitdə qurum Türk Dövlətləri Təşkilatı adlandırılıb. Hər iki təşkilat Azərbaycanın haqlı işində daim bizə dəstək olub. İslam Əməkdaşlıq Təşkilatı da ənənəvi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və 2021-ci ildə də bu dəstəyi hiss etmişik. Bundan əlavə, Azərbaycan Prezidentinin dekabr ayında Brüsselə səfəri, NATO və Avropa İttifaqı rəhbərləri ilə görüşləri olub. NATO-nun zirvə görüşündə, eləcə də Avropa İttifaqının Şərq Tərəfdaşlığı sammitində qəbul edilmiş sənədlərdə ölkələrin ərazi bütövlüyü, suverenliyi bir daha dəstəklənib.

İlham Əliyev Azərbaycanın qonşu dövlətlərlə əlaqələrinin də uğurla inkişaf etdiyini vurğulayıb: "Türkiyə ilə imzalanmış Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan əlaqələrini rəsmən müttəfiqlik səviyyəsinə qaldırır, halbuki faktiki olaraq bu, müttəfiqlik əlaqələri idi, amma bu, artıq rəsmən təsdiqləndi və əlbəttə ki, bu bəyannamənin Şuşa şəhərində imzalanmasının xüsusi mənası var idi.

Rusiya ilə əlaqələrimiz uğurla inkişaf edir. Əminəm ki, növbəti dövrdə Rusiya ilə də bizim əlaqələrimiz daha yüksək səviyyəyə rəsmən qaldırılacaqdır.

Digər qonşularla, İran və Gürcüstanla daim təmaslar əsnasında, fikir mübadiləsi əsnasında dostluq və tərəfdaşlıq əlaqələri daha da inkişaf etmişdir. Artıq regionda çoxtərəfli əməkdaşlıq platformu formalaşır və əlbəttə ki, bu, bizim maraqlarımıza cavab verir".

Prezident Ermənistanla münasibətlərə də toxunub: "Qonşular haqqında danışanda təbii olaraq Ermənistanı mən heç vaxt bu kateqoriyadan olan ölkələrə daxil etmirdim. Bu gün də hələ ki, daxil etmirəm. Amma ümid edirəm ki, nə vaxtsa Ermənistanla da bizim qonşuluq əlaqələrimiz qurulacaq. Hər halda İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edərək Ermənistan da regional çərçivədə öz rolunu artıra bilər. Hər halda noyabr və dekabr aylarında Soçi və Brüssel şəhərlərində keçirilmiş görüşlər ümidvericidir və ümid edirəm ki, bu görüşlərdə əldə edilmiş razılaşmalar 2022-ci ildə real həyatda öz əksini tapacaqdır.

Biz İkinci Qarabağ müharibəsini heç vaxt unutmamalıyıq. İşğal dövründə törədilmiş vəhşilikləri unutmamalıyıq və unutmayacağıq. Biz şəhidlərimizin xatirəsini daim öz qəlbimizdə yaşadacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qəhrəmanlığı və minlərlə, on minlərlə Azərbaycan əsgər-zabitinin qəhrəmanlığı, peşəkarlığı sayəsində biz işğala son qoyduq, doğma torpaqlarımızı azad etdik, tarixi Zəfər çaldıq və bu Zəfər bizim tariximizdə əbədi qalacaq. Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimi tanınır. Onu da bildirməliyəm ki, bu il Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, müharibə dövründə bütün müharibə qaydalarına riayət etməyimiz və müharibədən sonra özümüzü ləyaqətlə aparmağımız idi".

2021-ci ildə azad edilmiş torpaqlarda geniş quruculuq-bərpa işlərinə start verildiyini deyən dövlət başçısı bildirib ki, bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq. Prezident il ərzində Azərbaycanın bölgələrinə 47 dəfə, o cümlədən 32 dəfə azad edilmiş torpaqlara səfər etdiyini diqqətə çatdırıb: "Təkcə Şuşa şəhərinə 7 dəfə getmişəm. Biz Şuşada böyük quruculuq işlərinə start verdik və azad edilmiş torpaqlar arasında təbii olaraq ən genişmiqyaslı bərpa işləri Şuşa şəhərində aparılır. Eyni zamanda, digər şəhər və kəndlərdə çox genişmiqyaslı işlər aparılır və aparılacaq".

2022-ci ildə Şuşa şəhərinin 270 illiyinin təntənə ilə qeyd olunacağını deyən İlham Əliyev bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə yeni ili "Şuşa İli" elan etdiyini bildirib.

Prezident vurğulayıb ki, qarşıya qoyulan bütün məqsədlərə nail olmaq üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir: "Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük. Əlbəttə, əgər iqtisadi inkişaf sürətlə getməsə, bu işləri bu sürətlə aparmaq mümkün olmayacaq".

Dövlət başçısı qeyd edib ki, görülmüş işlər nəticəsində Azərbaycan iqtisadiyyatı 2020-ci ildə pandemiyanın doğurduğu böhrandan artıq çıxıb və postböhran dövrünə qədəm qoyub. Azərbaycan iqtisadiyyatı 2021-ci ilin 11 ayında 5,3 faiz, qeyri-neft iqtisadiyyatı isə 6,4 faiz, sənaye istehsalı 5,5 faiz, valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb. Ticarət əlaqələrimizin müsbət saldosu 9,4 milyard dollardır.

Prezident təbrik müraciətinin sonunda deyib: "Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

# "Xəyalımız üzəydi sevda dənizlərində..."

## Mikayıl Müşfiqin xatirəsi yad olunub

əvvəli səh. 1-də

Məlumat verilib ki, Mikayıl Əbdülqadir oğlu İsmayılzadə 1908-ci il iyunun 5-də Bakının Dağlı məhəlləsində, ziyalı ailəsində dünyaya göz açıb. Atası müəllimlik edib, "Vüsaqi" təxəllüsü ilə şeirlər yazıb. O, 1902-ci ildə Xızıdan Bakıya köçüb. Körpə ikən anası Züleyxanı, altı yaşında isə atasını itirmiş balaca Mikayıl yaxın qohumlarının himayəsində böyüyüb. O, həyatdan küsməyib və hər zəhmətə qatlaşaraq ardıcıl təhsil alıb. 1915-1920-ci illərdə rus-Azərbaycan məktəbində, 1920-1927-ci illərdə əvvəlcə Bakı Darülmüəllimində, sonra isə 12 nömrəli ikinci dərəcəli məktəbdə, 1927-1931-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində oxuyub. Əmək fəaliyyətinə müəllimliklə başlayıb, Bakı məktəblərində yeddi il dərs deyib.



Mikayıl Müşfiqin ilk mətbu əsəri – "Bu gün" şeiri 1926-cı ildə "Gənc işçi" qəzetində, "Duyğu yarpaqları" adlı son şeiri isə 1937-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc edilib. Məhsuldar yaradıcılığı sayəsində 1930-cu ildən başlayaraq onun "Küləklər", "Günün səsləri", "Buruqlar arasında", "Bir may", "Pambıq", "Vuruşmalar", "Şeirlər", "Şəngül, Şüngül, Məngül", "Qaya", "Kəndli və ilan" kitabları nəşr olunub. 1957-ci ildən başlayaraq "Seçilmiş əsərləri", "Duyğu yarpaqları", "Əbədiyyət nəğməsi", "Könlümün dedikləri", "Həyat sevgisi" və digər adlar altında kitabları çap edilib. Şairin ömür-gün yoldaşı Dilbər Axundzadənin 1968-ci ildə "Müşfiqli günlərim" adlı xatirələr kitabı nəşr olunub, kitabın son nəşri 2005-ci ildə işıq üzü görüb.

Sovet imperiyasının repressiya dalğasına tuş gələn Mikayıl Müşfiq 1938-ci il yanvarın 6-da güllələnib.

Çıxışlarda həmçinin bildirilib ki, Mikayıl Müşfiq folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən poetik nümunələr yaradıb. Bu nümunələr Azərbaycanın bədii fikir xəzinəsini daha da zənginləşdirib.

Tədbirdə Xızı məktəbliləri şairin şeirlərindən parçalar səsləndirib.

# "Məzəli hadisə"



Şəki Dövlət Dram Teatrı 2022-ci ildə tamaşaçıları yeni səhnə əsərləri ilə sevindirəcək. Yaradıcı kollektiv ilk olaraq yanvarda teatrsevərlərə İtaliya dramaturqu Karlo Qoldoninin "Məzəli hadisə" pyesi əsasında hazırlanan eyniadlı tamaşanı təqdim edəcək.

Rejissor Orxan Həmidlinin quruluş verdiyi tamaşada fransız zabitinin holland tacirinin qızına aşiq olmasından bəhs edilir.

Teatrın ədəbi dram hissə müdiri Sevda Rəsulqızı bildirib ki, 2022-ci ilin repertuar planına Vaqif Səmədoğlunun "İntihar", Əli Səmədlinin "Meşə çaqqalsız olmaz", Qriqori Qorinin "Herostratı unudun" və Bəyazıd Gülercanın "Lodos" əsərləri də daxil edilib. "Herostratı unudun" tamaşası üzərində məşqlər gələn həftə başlanacaq.

# "Nizami Gəncəvi İli"ndən xatirə

Xəbər verdiyimiz kimi, Nizami Gəncəvinin 880 illiyi münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən xatirə nişanı təsis edilib. Xatirə nişanı "Nizami Gəncəvi İli"ndə öz yaradıcılığı, fəaliyyəti ilə fərqlənən mədəniyyət, incəsənət, ədəbiyyat və elm xadimlərinə təqdim edilir. Ötən ilin son iş günü, dekabrın 30-da Azərbaycan Milli Kitabxanasında bir qrup incəsənət xadiminə "Nizami Gəncəvi-880" xatirə nişanının təqdimetmə mərasimi keçirildi.



Mərasimdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirdi ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin ölkəmizdə "Nizami ili" elan edilməsi dövlətimizin Azərbaycan xalqının mədəniyyətinə, milli kimliyinə sadiqliyinin sübutudur. "Nizami ili" çərçivəsində ölkəmizdə və xaricdə reallaşan layihələrdən söz açan Elnur Əliyev dedi: "Xalqın ən böyük sərvətlərindən biri onun milli-mənəvi dəyərlərinin, mədəniyyətinin formalaşmasında mühüm rol oynayan dahi şəxsiyyətləri, tanınmış mütəfəkkirləridir. Çünki bir xalqın dünya sivilizasiyasında özünəməxsus yer tutmasında onun dühа sahibləri xüsusi rol oynayır. Biz də o xoşbəxt xalqlardanıq ki, söz yaradıcılarımız bəşəriyyətə öz töhfələrini verib və bütün dünyada tanınır, sevilir. Belə əvəzolunmaz dahilərimizdən biri də Nizami Gəncəvidir. Azərbaycan xalqı üçün Nizaminin şəxsiyyəti və yaradıcılığı xüsusi önəm daşıyır. Nizami əsərlərində bütün fikrini cəmiyyətə, insanlar arasında münasibətlərin tənzimlənməsinə yönəldib. O, insan cəmiyyətinə kompleks formada yanaşıb və onun problemlərinin həlli yollarını göstərib. İnsan və cəmiyyəti düşündürən elə bir məsələ yoxdur ki, Nizami əsərlərində ona toxunmasın. Azərbaycanda multikultural cəmiyyətin yetişməsində, şübhəsiz ki, dahi şairimizin rolu var".

Ömrü boyu Gəncədə yazıb-yaradan Nizaminin poemalarında hadisələrin, qəhrəmanların böyük bir coğrafiyanı əhatə etdiyini deyən Elnur Əliyev vurğuladı ki, şairin XII əsrdə tərənnüm etdiyi ümumbəşəri dəyərlər, humanizm ideyaları Avropada da yayılıb. Bu mənada Azərbaycan bir çox inkişaf etmiş ölkələrə nümunə ola bilər: "Məqsədimiz müasir günümüzdə Nizami ideyalarını bütün dünyaya daha geniş şəkildə təbliğ etməkdir. Nizami fəlsəfəsi bu coğrafiyanın hələ XII əsrdən intellektli insanların, mədəni müxtəlifliyin, tolerantlığın beşiyi olduğunu göstərir".

Nazirin birinci müavini qeyd etdi ki, mədəniyyətlərarası ziddiyyətlərin dərinləşdiyi, dini ayrı-seçkiliyin siyasi ritorikada aktuallaşdığı bir vaxtda sülhü, ədaləti, dialoqu, həmrəyliyi təbliğ edən mütəfəkkirlərin tanıdılması çox vacibdir. Bu baxımdan belə ənənələri formalaşdıran Nizami Gəncəvilərin dünyada təbliği böyük əhəmiyyət kəsb edir.

Daha sonra Elnur Əliyev incəsənət nümayəndələrinə "Nizami Gəncəvi-880" xatirə nişanlarını təqdim etdi. Təltif olunanlar arasında Xalq artistləri Nurəddin Mehdixanlı, Yalçın Adıgözəlov, Fuad Osmanov, Samir Cəfərov və başqa tanınmış sənət adamları vardı.

# Aşıq Ələsgərin 200 illiyinin son sənət axşamı



Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, ustadlar ustadı Aşıq Ələsgərin 200 illik yubileyi saz-söz bayramı kimi yaddaşlara yazıldı. Yubiley ilinin son tədbiri dekabrın 29-da Beynəlxalq Muğam Mərkəzində (BMM) gerçəkləşdi.

Tədbir "Dədə Ələsgər Ocağı" İctimai Birliyi, AMEA-nın Folklor İnstitutu və BMM-in əməkdaşlığı ilə təşkil edilmişdi.

İştirakçılar əvvəlcə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının 1972-ci ildə (ustad aşığın 150 illiyi münasibətilə) istehsal etdiyi, Dövlət Film Fondu tərəfindən bərpa olunan "Aşıq Ələsgər" sənədli filmini (ssenari müəllifi – İlyas Tapdıq, rejissor – Xamis Muradov) izlədilər.

Tədbirdə çıxış edən "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgər diqqətə çatdırdı ki, ictimai birlik ustad aşığın 200 illik yubileyi ilə əlaqədar bir sıra layihələr həyata keçirib. İl ərzində kitablar nəşr edilib, Aşıq Ələsgərin şeirləri gürcü və alman dillərində işıq üzü görüb. Noyabr ayında Türkiyədə TÜRKSOY, Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Məclisin Mədəniyyət komitəsinin birgə təşkilatçılığı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Türkiyədəki səfirliyimiz və Azərbaycan Aşıqlar Birliyinin dəstəyi ilə yubiley tədbiri keçirilib, Aşıq Ələsgərin nəfis tərtibatda kitabı təqdim olunub.

AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov Aşıq Ələsgərin irsindən söz açdı: "Əminliklə deyə bilərəm ki, Aşıq Ələsgər aşıq sənətimizin Nizamisi və Füzulisidir. Aşıq Ələsgər heç bir təriqətin nümayəndəsi olmadığı halda sufi şairlərdən, xüsusən Nəsimidən bəhrələnib. Təəssüf ki, biz bu gün Aşıq Ələsgərin öz səsinin şahidi deyilik. Buna baxmayaraq onun sözü qalıb. Aşıq Ələsgər təkcə Azərbaycanın deyil, bütövlükdə türk xalq mədəniyyətinin simvolu və ən uca zirvələrindən biridir".

Muxtar İmanov Aşıq Ələsgərin bütövlükdə ozan sənətinin qədim dövrlərdən gələn ana xətlərinə bağlı bir sənətkar olduğunu qeyd etdi. Vurğuladı ki, sənətkarı bu kontekstdən kənarda təhlil etmək yanlış nəticələrə gətirib çıxara bilər: "Aşıq Ələsgərin ən üstün və bizə doğma gələn cəhəti onun dil, üslub, məfkurə, təlim, dini dünyagörüşü baxımından ənənəyə hədsiz dərəcədə bağlılığı və bu bağlılığın içərisində özünün sənətkar fərdiyyətinin olmasıdır".

Daha sonra aşıqların iştirakı ilə konsert proqramı təqdim edildi.

Folklor İnstitutunun "Dədə Qorqud" folklor ansamblının bədii rəhbəri, Əməkdar artist, xanəndə Nuriyyə Hüseynova, Ədalət Nəsibov adına musiqi təhsili mərkəzinin "Xarıbülbül" saz ansamblı, "Abşeron" saz ansamblı, aşıqlar Ədalət Dəlidağlı, Təbriz Vəliyev, Kərəm Təbrizoğlu, Solmaz Kosayeva və başqalarının ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Sənət axşamında Aşıq Ələsgərin şeirlərindən nümunələr də səsləndirildi.

**L.Azəri**

# Rənglə yazılmış tarix

## Mikayıl Abdullayevin yubileyinin yekun tədbiri

Yola saldığımız il həm də milli təsviri sənətimizin görkəmli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatı laureatı Mikayıl Abdullayevin (1921-2002) 100 illik yubileyi ilə yadda qaldı. Prezident İlham Əliyevin sənətkarın yubileyi ilə bağlı sərəncamına əsasən, silsilə tədbirlər reallaşdı.





Mikayıl Abdullayevin 100 illiyinin yekun tədbiri dekabrın 30-da Azərbaycan Rəssamlar İttifaqında (ARİ) keçirildi.

ARİ-nin sədri, Xalq rəssamı Fərhad Xəlilov çıxış edərək bildirdi ki, Mikayıl Abdullayev parlaq ənənələrə malik Azərbaycan rəssamlıq məktəbinin böyük simalarındandır. Onun təsviri sənətin müxtəlif sahələrini əhatə edən koloritli yaradıcılığı xalqımızın mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Sənətkar çoxsaylı tematik lövhə, mənzərə və natürmortlarında doğma təbiətin gözəlliklərini, insanların quruculuq əzmini və mənəvi zənginliyini incə rəng çalarları ilə tərənnüm edib.

Vurğulandı ki, sənətkar Nizami "Xəmsə"sinin motivləri əsasında monumental rəngkarlığın bənzərsiz nümunələrini yaradıb: "Milli İncəsənət Muzeyində rəssamın 100 illik yubileyinə həsr olunmuş geniş sərgi Mikayıl Abdullayev sənətinin zənginliyindən xəbər verir. Sərgini izləyən hər kəs görür ki, rəssamın yaradıcılığında heç bir boşluq olmayıb. Onun bir-birindən gözəl qrafika, eskiz, akvarel və digər əsərləri ömür və yaradıcılıq yolunun mənasından soraq verir. Mikayıl Abdullayev rəssam kimi hər zaman öz üslubuna sadiq idi...".

Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev Mikayıl Abdullayevin həyat və yaradıcılığından söz açdı. Bildirdi ki, rəssam istər çağdaş, istərsə də tarixi mövzuların eyni sənətkarlıqla obrazlı və orijinal forma-biçim ifadəsinə nail ola bilib. Onun dəzgah və monumental rəngkarlıq, qrafika, səhnəqrafiya və heykəltəraşlıq sahəsində ərsəyə gətirdiyi çoxsaylı əsərləri Azərbaycan incəsənətinə layiqli töhfədir: "Rəssamın rəngkarlıqdan fərqli digər sahələrə də müraciəti uğurlu olub. Bu mənada görkəmli sənətkarın Bakı metrosunun "Nizami" stansiyasının daxili salonunu bəzəyən mozaik pannolarının xüsusi əhəmiyyət kəsb etdiyini deməliyik. Rəssamın kitab qrafikası sahəsindəki fəaliyyəti də özünəməxsus bədii-estetik məziyyətləri ilə seçilir. Özünün plastik duyumunu 1973-ci ildə hazırladığı "İmadəddin Nəsimi" heykəlində (A.Mustafayevlə birlikdə) gerçəkləşdirən Mikayıl Abdullayev hürufi şairin üsyankar ruhunu cəlbedici forma-biçimdə təqdim etməyə nail olub. Bu yerdə əlavə edək ki, rəssam 1973-cü ildə İmadəddin Nəsiminin obrazı üçün elan olunmuş müsabiqənin qalibi idi. O, eyni zamanda Üzeyir Hacıbəylinin və Səməd Vurğunun ilk portretlərinin müəllifidir. Fırça ustasının əsərləri yaradıcılığının zaman və məkan çərçivəsinə sığmadığını da təsdiqləyir".

Tədbirdə Mikayıl Abdullayevin tələbəsi olmuş Xalq rəssamları Arif Hüseynov, Aydın Rəcəbov, Əməkdar rəssam İsa Məmmədov müəllimləri ilə bağlı xatirələrini bölüşdülər.

Sonda Mikayıl Abdullayevə həsr olunmuş "Rənglə yazılmış tarix" adlı film nümayiş etdirildi. "Azərbaycantelefilm"in istehsalı olan filmin ssenari müəllifi Möhbəddin Səməd, quruluşçu rejissoru Elnurə Kazımovadır.

**Lalə**

# Teatrların köhnə-yeni repertuarından

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Xalq yazıçısı Kamal Abdullanın "Bir, iki – bizimki!" pyesi əsasında səhnələşdirilmiş tamaşanı yeni ilin ilk ayında da repertuara salıb. Yanvarın 7-də nümayiş etdiriləcək tamaşanın bədii rəhbəri Xalq artisti Azər Paşa Nemətov, quruluşçu rejissoru Əlif Cahangirli, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq rejissoru Rafael Həsənov, səs rejissoru Şahanə Səlimova, rejissor assistenti Nərmin Camalovadır.





Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Min bir gecə" nağıllarının motivləri əsasında hazırlanan "999-cu gecə" tamaşası növbəti dəfə yanvarın 14-də nümayiş olunacaq. Tamaşanın quruluşçu rejissoru İradə Gözəlova, quruluşçu dirijoru Fəxrəddin Atayev, quruluşçu rəssamı Nabat Səmədova, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu baletmeysterləri Yelena və Zakir Ağayevlər, konsertmeysteri Fidan Babayeva, rejissor assistentləri Sevinc Məmmədova və Sara Kərimlidir.

Xeyirlə Şərin əbədi qarşıdurması fonunda eşq uğrunda mübarizənin təqdim olunduğu tamaşanın musiqi tərtibatında dahi bəstəkar Fikrət Əmirovun "Min bir gecə" baletinin musiqilərindən və məşhur mahnılarından istifadə olunub.

Azərbaycan Dövlət Pantomim Teatrında Nurlan Rüstəmovun "Ağbığlılar" əsəri əsasında səhnələşdirilmiş eyniadlı tamaşa (quruluş müəllifi – Əməkdar artist Behruz Əhmədli) uzun fasilədən sonra nümayiş olunacaq. Yanvarın 8-də göstəriləcək səhnə əsəri iki süpürgəçinin iş prosesində başlarına gələn komik və həm də kədərli əhvalatlardan bəhs edir.

# Heydər Əliyev Sarayından bayram töhfəsi

Heydər Əliyev Sarayında uşaqların sevimli qəhrəmanlarının iştirakı ilə interaktiv "Yeni ilin arzu medalyonu" adlı musiqili nağılın premyerası olub. 2-4 yanvar tarixində nümayiş olunan tamaşanın ssenari müəllifi, Əməkdar artist Ramil Qasımov bildirib ki, layihənin məqsədi əsl dostluğu, dürüstlüyü, həyatda ədalətli, xeyirxah olmağı və hər zaman xeyirin şər üzərində qələbə qazanacağını uşaqlara aşılamaqdır.



Quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva olan musiqili-əyləncəli tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb. Bundan əlavə, Yeni ilin sevilən personajı Şaxta baba uşaqlarla görüşüb və onları mahnı, rəqs, oyun və təzə il zarafatları ilə sevindirib.

Uşaqların Şaxta baba ilə dialoqları, maraqlı səhnəciklər, həmçinin milli və xarici musiqilərə hazırlanmış rəqslər və sürprizlərlə dolu anlar gecəyə xüsusi rəng qatıb. Balacalar və valideynlər anşlaqla keçən maraqlı şənlikdən böyük zövq alıblar.

Heydər Əliyev Sarayında üç gün nümayiş olunan tamaşa üçün Qarabağ müharibəsi iştirakçılarının, şəhid ailələrinin uşaqlarına və uşaq evlərinin sakinlərinə, əlillər cəmiyyətlərinin üzvlərinə təmənnasız yerlər ayrılıb.

# "Qarabağ" futbol klubu haqqında sənədli film çəkilir

"Salnaməfilm" studiyasında Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Qarabağ" futbol klubu haqqında 4 seriyalı sənədli filmin istehsalına başlanılıb.




Studiyadan bildirilib ki, arxiv materiallarına istinad ediləcək filmdə Ağdamda "Qarabağ" futbol klubunun yaranması, Ağdamın işğalından sonra Bakıda fəaliyyəti, ölkə və Avropa miqyaslı yarışlarda iştirakı, qazandığı nailiyyətlər və s. əks olunacaq. Filmin ssenari müəllifi İsmayıl Səfərəli, rejissoru Fuad Quliyevdir.

Xatırladaq ki, mədəniyyət naziri Anar Kərimov ötən ilin yekunlarına həsr olunmuş mətbuat konfransında kino sahəsindən danışarkən 2022-ci ildə "Qarabağ" futbol klubundan bəhs edən sənədli filmin çəkiləcəyini bildirmişdi.

# Muzey kolleksiyaları necə qorunur?

Yanvarın 8-də Azərbaycan Milli Xalça Muzeyində ilin ilk ustad dərsi "Muzeyin kolleksiyaları necə qorunur?" mövzusuna həsr ediləcək.



Xalça Muzeyindən bildirilib ki, ustad dərsi muzeyin eksponatların qorunması və qeydiyyatı üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mira Məmmədxanovanın 65 illik yubileyi münasibətilə reallaşacaq.

Muzeyin kolleksiyasındakı xalça, xalça məmulatları, bədii metal, parça, geyim, tikmə, çini, şüşə, ağac, kağız və zərgərlik nümunələrinin qorunub saxlanılması məsələləri barədə bu sahədə 30 ildən artıq təcrübəsi olan Mira Məmmədxanova özü mühazirə iştirakçılarına məlumat verəcək.

Pandemiya şəraiti ilə əlaqədar ustad dərsində yerlər məhduddur. Öncədən qeydiyyatdan keçmək məqsədəuyğun sayılır.

## Ötən ilə nəzər salınıb, yeni hədəflər müzakirə olunub

Bərdə Regional Mədəniyyət İdarəsində (RMİ) 2021-ci ilin yekunlarına həsr olunmuş şura iclası keçirilib. İdarə rəisi İlyas Hacıyevin iştirakı ilə keçirilən iclasda gündəlikdə duran bir sıra məsələlər müzakirə olunub, nailiyyətlərdən və nöqsanlardan söz açılıb.



Lənkəran RMİ-də 2021-ci ilin yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib. İdarənin məsul əməkdaşlarının və mədəniyyət müəssisələri rəhbər işçilərinin iştirak etdiyi iclasda il ərzində görülmüş işlər müzakirə edilib, növbəti il üzrə əsas prioritetlər müəyyən olunub.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində 2022-ci il ərzində görüləcək işlərlə əlaqədar toplantı keçirilib. Toplantıda cari ildə qarşıda duran vəzifələr müzakirə olunub, fəaliyyətin müasir tələblər səviyyəsində qurulması ilə bağlı çıxışlar dinlənilib, təkliflər səsləndirilib.

## İcra başçısı muzeydə uşaqlarla görüşüb

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Mir Cəlal Paşayevin şəhərdəki ev-muzeyini ziyarət edib.



Muzeyin direktoru İradə Paşayeva görkəmli yazıçı, şair, dramaturq, tənqidçi, tərcüməçi və ədəbiyyatşünas M.C.Paşayevin həyat və yaradıcılığı barədə ətraflı məlumat verib.

Daha sonra muzeyə gəlmiş məktəblilərlə səmimi söhbət edən icra başçısı onlara dərslərində müvəffəqiyyətlər arzulayıb. Şagirdlər görkəmli edib, elm xadimi M.C.Paşayev haqqında danışıb, şeirlər söyləyib, fortepianoda musiqi ifa ediblər.

Niyazi Bayramov muzeydə fəaliyyət göstərən Azərbaycan Yazıçılar Birliyi Gəncə Bölməsinin sədri Xəzangül Hüseynova ilə də görüşüb, gəncəli yazarların yaradıcılığı ilə maraqlanıb.

## Qobustan qoruğunda ilin yekunları müzakirə edilib

Qobustan Milli Tarix-Bədii Qoruğunda 2021-ci ilin yekunlarına dair toplantı keçirilib.



Qoruğun direktoru Vüqar İsayev elmi tədqiqat və təbliğat-təşviqat işləri, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, innovativ üsulların tətbiqi və ziyarətçi məmnunluğunun daha da artırılması istiqamətində qarşıya qoyulan məqsədlərdən danışıb.

Əldə edilən uğurlarda əməkdaşların əməyini xüsusi qeyd edən direktor il ərzində öz sahəsi üzrə yüksək peşəkarlıq göstərən qoruğun aparıcı elmi işçisi Sevinc Şirinli və texniki işçi Xəyyam Rəhimlinin "İlin işçisi" adına layiq görüldüklərini diqqətə çatdırıb, onlara bundan sonrakı fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Sonda Qobustan Milli Tarix-Bədii Qoruğunun bir qrup əməkdaşına təşəkkürnamə və mükafatlar təqdim olunub.

## Şəkidə turistlər üçün dağ gəzinti marşrutları

Azərbaycan Turizm Bürosunun tabeliyində olan Şəki Destinasiya Menecment Təşkilatı 2020-2021-ci illərdə ümumi uzunluğu 26 km olan və 4 fərqli istiqamətləri əhatə edən yürüş cığırlarının (hayking) işarələnməsi işini başa çatdırıb.



Dövlət Turizm Agentliyindən bildirilib ki, birinci mərhələdə Şəki şəhərindəki Yuxarı Karvansara ilə "Güllütəpə" adlanan ərazini birləşdirən qədim cığır yolu işarələnib, ikinci mərhələdə isə Xan sarayı ilə Xan yaylağı və Qurcana şəlaləsini birləşdirən dağ marşrutu işarələnərək istifadəyə verilib.

Bundan əlavə, Xan sarayı ilə Xan yaylağını birləşdirən iki marşrut da işarələnərək istifadəyə verilib. Bunlardan biri "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda "Birinci rayon" adlı ərazidən, digəri isə Şəki əhalisi arasında "Çatqal" adı ilə məşhur olan dərədən keçir. Marşrutların üzərində kempinq üçün əlverişli yerlər, eləcə də istiqamətlər və bulaqlar barədə məlumatlar ox işarələri və lövhələrlə göstərilib.

Yürüş marşrutları Şəkinin gediş və dönüş istiqamətlərində qurаşdırılıb. Regionun digər dağ cığırları üzrə həyata keçirilən işlərin bundan sonra da davam etdirilməsi nəzərdə tutulub.

## Bölgələrdə müxtəlif səpkili tədbirlər



Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Sabirabad rayon Mədəniyyət Mərkəzində şəhid və qazi övladları üçün Yeni il şənliyi keçirilib. Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Uşaq və Gənclər Teatrının iştirak etdiyi tədbirdə uşaqlar üçün maraqlı səhnəciklər, oyunlar, müsabiqələr təşkil olunub.

Sumqayıt RMİ Əhməd Bakıxanov adına 1 nömrəli Uşaq incəsənət məktəbində görkəmli bəstəkar Cahangir Cahangirovun (1921-1992) 100 illik yubileyinə həsr olunan tədbir təşkil edilib. Məktəbin kollektivi konsert proqramı ilə çıxış edib. Uşaq xorunun ifasında "Məhsul mahnısı", xanəndə sinfi şagirdlərinin ifasında "Ana Kür", "Teymurun mahnısı", "Alagöz", xalq çalğı alətləri ansamblının ifasında "Bakım mənim", "Zərif gülüşlüm", "Yallı" və digər əsərlər alqışlarla qarşılanıb.

Sumqayıt RMİ Xızı rayon nümayəndəliyinin əməkdaşları bayram günlərində şəhid ailələrini ziyarət ediblər. Ziyarət zamanı Xızı rayon nümayəndəliyi və uşaq yazarı Gülzar İbrahimova tərəfindən kitablar, audionəşr və suvenirlərdən ibarət hədiyyələr, eləcə də bayram sovqatları şəhid övladlarına paylanılıb.

Biləsuvar RMİ Neftçala rayon MKS-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Vətən müharibəsi şəhidlərinin övladları üçün "Balalara sevinc gətir, Yeni il" adlı bayram şənliyi təşkil edilib. Salyan rayon Mədəniyyət Mərkəzi və "Hacıoğlu" istirahət mərkəzinin təşkilatçılığı ilə bayram tədbiri keçirilib. Şəhid ailələri, qazilər, rayon ictimaiyyəti və digər qonaqların iştirak etdiyi şənlikdə mərkəzin ansamblının ifasında bir-birindən şux musiqilər səsləndirilib, qonaqlar arasında viktorinalar keçirilib, Şaxta baba və Qar qız, klounlar kompozisiyalar nümayiş etdirərək uşaqları əyləndiriblər.

Ağstafa RMİ-nin rəisi vəzifəsini müvvəqqəti icra edən Adil Həsənov Vətən müharibəsi şəhidləri Sərxan Abdullayev, Timur Əliyev, Nihad Abdullayev və Xəyal Əlizadənin ailələrinə baş çəkib, qayğıları ilə maraqlanıb. Tovuzda Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ümumrayon tədbiri keçirilib. Tədbirdə rayonun incəsənət ustalarının ifasında rəngarəng konsert proqramı təqdim edilib.



Xaçmaz RMİ Siyəzən rayon Mədəniyyət Mərkəzində bayramlar münasibətilə "Tıqtıq xanımın Yeni il sərgüzəştləri" adlı şənlik təşkil edilib. Şənlikdə iştirak edən uşaqlar təqdim edilən səhnəciklərdən zövq alıblar.

İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyasında "Xoş gəldin, Yeni il" adlı rəsm sərgisi təşkil edilib. Sərgidə qalereyanın nəzdində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin əl işləri nümayiş olunub.



Kürdəmir RMİ İmişli rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə N saylı hərbi hissədə əsgərlərlə görüş keçiriblər. Rayonun incəsənət ustalarının təqdim etdiyi konsert proqramı maraqla qarşılanıb.



Şəki RMİ Qax rayon Güllük kənd Mədəniyyət evi və orta məktəbinin birgə təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. Çıxış edənlər hər iki bayram münasibətilə tədbir iştirakçılarına xoş diləklərini çatdırıblar.

Şəmkir RMİ Şəmkir rayon Mədəniyyət Mərkəzinin kollektivi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə N saylı hərbi hissədə hərbçilər və onların övladları qarşısında bayram konserti ilə çıxış ediblər.

Ağdaş RMİ Göyçay MKS-nin 35 saylı Alpout kənd kitabxana filialında "Əzizə Cəfərzadənin yaradıcılığında tarixi povest janrı" başlıqlı tədbir keçirilib. Xalq yazıçısı, görkəmli alim Əzizə Cəfərzadənin (1921-2003) 100 illiyinə həsr olunan tədbirdə çıxış edənlər ədibin bədii yaradıcılığından, pedaqoji fəaliyyətindən, gördüyü xeyriyyə işlərindən danışıblar.

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında şəhid və qazi ailələri, uşaq evinin körpələri üçün "Sound Pro" MMC-nin nəzdində fəaliyyət göstərən "Teatral" studiyasının təqdimatında "Balaca Günəş və ya Qırmızıpapağın Yeni il macəraları" adlı tamaşa nümayiş etdirilib.

Türkiyənin "Show TV" kanalının çəkiliş heyəti Ağcabədi RMİ Ağdam rayon Cabbar Qaryağdıoğlu adına 1 saylı Uşaq musiqi məktəbinin qonağı olub. Çəkiliş zamanı məktəbin müəllim və şagirdləri tərəfindən konsert proqramı təqdim edilib. Konsertdə Azərbaycanın və qardaş ölkənin xalq musiqiləri, görkəmli bəstəkarların əsərləri səsləndirilib.

**Hazırladı: N.Məmmədli**

## Qəlbləri dinləndirən yazıçı

Ağstafa Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Qazax rayon MKS E.Hüseynov adına Mərkəzi Kitabxanasının oxu zalında tanınmış yazıçı, şair, tərcüməçi, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Vidadi Babanlının anadan olmasının 95 illiyinə həsr edilmiş "Qəlbləri dinləndirən yazıçı" adlı tədbir keçirilib.

Tədbirdə Bakı Dövlət Universiteti Qazax filialının tələbələri, kitabxananın əməkdaşları və fəal oxucular iştirak ediblər.

Kitabxananın Xidmət şöbəsinin müdiri Bəsti Məmmədova çıxış edərək bildirib ki, Vidadi Babanlı acı taleləri, haqsızlığı, çarəsizliyi, insanın başına gələn müsibətləri ürəyindən keçirib qələmi ilə təsvir edən yazıçıdır. Əsərləri ilə insanlara düzgün yol göstərən, mərdlik nümunəsini yalnız şəxsin özündə axtarmağın vacibliyini vurğulayan yazıçı Azərbaycan ədəbiyyatında özünəməxsus iz qoymağı bacarıb. Ədibin



"Vicdan susanda", "Ana intiqamı", "Ömürlük cəza", "Gəlin", "İnsaf nənə", "Müqəddəs ocaq" və s. əsərləri oxucular tərəfindən maraqla qarşılanıb.

Çıxışlardan sonra yazıçının kitablarından ibarət sərgiyə baxış olub.

Vidadi Yusif oğlu Babanlı 1927-ci il yanvarın 5-də Qazax rayonunun Şıxlı (indiki Muğanlı) kəndində doğulub. Qocaman yazıçı bu yaşında da yaradıcılığa davam edir. Səhhəti, gözlərinin zəifləməsi əlinə qələm almağa imkan verməsə də, diktə ilə yazdırdığı "Sabaha ismarıc" romanı çapdan çıxıb.

2022-ci ilin ilk yubilyarı olan tanınmış yazıçını 95 illiyi münasibətilə təbrik edir, cansağlığı arzulayırıq.

## Yaddaşlara yazılan musiqi axşamı

Naxçıvan şəhərindəki Heydər Əliyev adına Sarayda Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Dövlət Filarmoniyası musiqi kollektivlərinin konserti keçirilib.

Musiqi kollektivləri muxtar respublikanın Əməkdar artisti Səməd Əsgərov, Cahangir Qurbanov, Elvin Əliyarovun dirijorluğu ilə çıxış edib. Simfonik orkestr, xalq çalğı alətləri orkestri, xor kollektivləri, estrada orkestri, Ərtoğrol Cavid adına Uşaq musiqi və bədii sənətkarlıq məktəbinin xor kollektivinin çıxış etdiyi konsert proqramına Azərbaycan bəstəkarlarının əsərləri, aşıq musiqisi, xalq mahnı və rəqsləri daxil edilib.

Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ilə açılan bayram konsertində Habil Qasımov Xalq artisti Hacıbaba Hüseynovun repertuarından "Durnam" mahnısını, Ruhiyyə Hüseynova "O yollar" əsərini (bəstəkar Vasif Allahverdiyev) səsləndiriblər. Bəhruz Quliyev "Həsrətindəyəm" (Şəfiqə Axundova), Cəfər Tağıyev "Mənim dünyam" (Ələkbər Tağıyev), Nərmin Hüseynova "Kaş ki, gözəl olmayaydım" (Hökümə Nəcəfova), Xalq artisti Əzizağa Məmmədov "Naxçıvan" (Vahid Axundov) mahnılarını ifa ediblər.

Musiqisevərlərə xoş anlar bəxş edən gecədə ansambl və rəqs kollektivinin ifasında görkəmli bəstəkar Tofiq Quliyevin "Qaytağı" rəqsi, Ə.Cavid adına Uşaq musiqi və bədii sənətkarlıq məktəbi xor kollektivinin ifasında bəstəkar Teymur Cəbrayılovun "El oğlu" əsəri, xor və simfonik orkestrin (dirijor Elvin Əliyarov) ifasında bu sətirlərin müəllifinin



"Heydər Əliyev haqqında oda" əsəri də təqdim edilib.

Azərbaycanın mədəniyyət salnaməsində Naxçıvanın mədəni irsi, incəsənəti, yaradıcı şəxsiyyətləri xüsusi yer tutur. Ulu öndər Heydər Əliyev demişdir: "Bir azərbaycanlı, Azərbaycan Prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik".

Sözügedən konsertdə ənənələrin gələcək nəslə ötürülməsi tendensiyası diqqət çəkir. Bu, proqram tərtibatında – folklor musiqisinə (xalq mahnı və rəqs), ənənəvi musiqi qollarına (muğam, aşıq musiqisi), eyni zamanda bəstəkar əsərlərinə müraciətdə özünü büruzə verib. Konsert proqramına ənənə prizmasından yanaşarkən onu da qeyd etməliyik ki, Naxçıvanda zəngin tarixi olan aşıq sənəti inkişaf zirvəsinə XVIII əsrdə Ağ Aşığın (1754-cü ildə Şərur mahalından olan Allahverdi Qara Osmanoğlu) yaradıcılığı ilə çatıb. Bu gün Naxçıvan aşıqları sənətin ənənələrini davam etdirməklə yanaşı, onu simfonik orkestrin müşayiəti ilə təqdim edə bilirlər. İlk dəfə olaraq bu konsertdə Cahangir Qurbanovun dirijorluq etdiyi simfonik orkestrin müşayiəti ilə Tural Bağırov "Şirvan müxəmməsi" adlı aşıq havasını səsləndirib. Ənənələrə sadiqlik folklor musiqisi sahəsindən də yan keçmir. Gecədə xalq rəqslərindən olan "İnnabı" proqram çərçivəsində çox gözəl səhnə dekorasiyaları və diqqəti cəlb edən milli geyimlərlə yadda qalıb. Emin Sabitoğlunun "Güllər" adlı vals timsallı əsəri müğənni Gülyanaq Fərzəliyeva tərəfindən rəqs qrupunun fonunda ifa edilib.

Konsert proqramında təqdim olunan bütün ifalar alqışlarla qarşılanıb.

**Kəmaləxanım Əsədullayeva**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## "Kələkbaz canavar" uşaqları sevindirib

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı "Kələkbaz canavar" tamaşası ilə Yeni ildə uşaqların görüşünə gəlib.

Teatrın aktyorlarının ifasında Keçi, Dovşan, Canavar, Tülkü, Ayı, Xoruz obrazları və başqa alleqorik personajların canlandırıldığı səhnə əsəri balaca tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Tamaşanın quruluşçu rejissoru və bədii rəhbəri Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Sabir Məmmədov, musiqi tərtibatçısı Əli Məmmədovdur.



Səhnə işinin sonunda Şaxta baba və Qar qızın səhnədə görünməsi balacaların sevincinə sevinc qatıb.

# Nizami dünyasına açılan "Beş qapı"

## Tələbə aktyorların ifasında

Dahi Azərbaycan şairi və mütəfəkkirinin şərəfinə adlandırılan 2021-ci il Nizami Gəncəvinin söz və hikmət dünyasının əbədiyaşar olduğunu bir daha sübut etdi. "Nizami ili"ndə ölkəmizdə və onun hüdudlarından kənarda rəngarəng tədbirlər keçirildi.





Dekabrın 29-da Heydər Əliyev Sarayında Nizami Gəncəvinin 880 illiyi münasibətilə təqdim olunan "Beş qapı" adlı tamaşa da paytaxtımızın baş səhnəsinin əlamətdar illə bağlı yekun tədbiri idi.

Nizaminin hikmətlər xəzinəsi – "Xəmsə"nin motivləri əsasında hazırlanan tamaşa Mədəniyyət Nazirliyinin dəstəyi, Heydər Əliyev Sarayı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) birgə təşkilatçılığı ilə reallaşdı.

Ssenari müəllifi Şahin Musaoğlu, bəstəkarı Tamilla Əhədova olan səhnə işinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev idi.

Layihənin məqsədi "Xəmsə"nin ayrı-ayrı poemalarında əks olunan hadisələrin beş qapı vasitəsilə açılması və təqdim edilməsidir. Tamaşada hər qapı bir poemanın konsepsiyasına uyğun məzmun və ideyanı özündə əks etdirərək teatral, xoreoqrafik, pantomim elementlərdən ibarət təsvirlərin qısa təhlili və canlandırılması ilə nümayiş olundu.

ADMİU-nun aktyor sənəti ixtisası üzrə təhsil alan tələbələrinin çıxış etdiyi səhnə əsəri döyüş təbillərinin çalınması və Makedoniyalı İskəndərin Əhəmənilər ölkəsinə hücumu ilə açılır. Qızğın döyüşlərdən sonra İran şahı Dara məğlub olur. İskəndər ölüm və dağıntıların səbəbini Darada görür...

Sonra Nizaminin dili ilə Bərdə şəhəri vəsf edilir. Şəhərin vaxtilə qədim mədəniyyət və elm ocağı olduğu bildirilir. Dahi şair həmin hissləri öz doğma yurdu qədim Gəncə haqqında da söyləyir. Daha sonra Nüşabə ilə görüşür...

Səhnə işi tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

**Savalan Fərəcov**

# "Susan insanın heykəlləri"

## Heykəltəraş Albert Mustafayevin 90 illik yubileyi qeyd olundu



Nizami Kino Mərkəzində Əməkdar rəssam, görkəmli heykəltəraş, Memarlıq və İnşaat Universitetinin professoru Albert Mustafayevin 90 illik yubileyi münasibətilə tədbir keçirildi.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə dekabrın 29-da gerçəkləşən tədbirdə sənətkarın yaradıcılıq yoluna nəzər salındı, onun mədəniyyətimizdə, milli heykəltəraşlıq sənətindəki mühüm xidmətlərindən söz açıldı.

Mərasimdə çıxış edən millət vəkili Vüqar İsgəndərov sənətkarın özünəməxsus yaradıcılıq yolu, paytaxt Bakıya xüsusi yaraşıq verən əsərləri, eləcə də onun pedaqoq, elmi rəhbər kimi yeni memarlar nəslinin yetişməsindəki rolundan bəhs etdi.

Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova Albert Mustafayevin ömrünün böyük hissəsini həsr etdiyi universitetin həyatındakı önəminə nəzər saldı. Onun həm tələbkar müəllim, həm məsuliyyətli elm adamı, həm də zəhmətkeş tədqiqatçı olduğunu dedi. Bildirdi ki, Nizami Kino Mərkəzinin fasadındakı Füzuli abidəsi də onun yaradıcılıq məhsuludur.

Qocaman yubilyara cansağlığı arzulayan rektor onun irsinin gələcək nəsillər üçün gözəl sənət nümunəsi olduğunu vurğuladı.

Azərbaycan Fotoqrafçılar Birliyinin sədri Mirnaib Həsənov isə heykəltəraşın fotoqraf kimi fəaliyyətinə nəzər saldı, onun ötən əsrin 60–70-ci illərdə görkəmli sənətkarlarımızın yaddaşlara köçürdüyü fotolarının hər birini ayrıca sənət nümunəsi kimi dəyərləndirdi.

Tədbir iştirakçıları Albert Mustafayevin çəkdiyi fotolardan ibarət maraqlı sərgi ilə də tanış oldular.

Daha sonra yubilyar sənətkarın həyat və yaradıcılıq yolundan bəhs edən "Susan insanın heykəlləri" adlı sənədli film nümayiş olundu. Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gələn filmin ssenari müəllifi və rejissoru Yeganə Əbdülməmmədova, operatoru Habil Muğanlıdır.

Xatırladaq ki, Albert Zaman oğlu Mustafayev 26 yanvar 1931-ci ildə Şəkidə doğulub. Sənətkar Bakı şəhərində "Bəhram Gur əjdahanı öldürür" fontan-kompozisiyasının həmmüəllifi, Nizami Kino Mərkəzinin baş fasadındakı Nizami Gəncəvi, vaxtilə Şuşada, Molla Pənah Vaqifin məqbərəsində qoyulmuş Vaqifin heykəlinin müəllifidir.

Onu da qeyd edək ki, ölkə başçısının 26 yanvar 2021-ci il tarixli sərəncamı ilə heykəltəraşlıq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Albert Mustafayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

**H.Nizamiqızı**

# "Özünü kəşf et"

## Ustad dərsləri bu il də davam edəcək

Azərbaycan Rəngkarlıq Muzeyində rəssamlığa həvəsi olan 16 yaşdan yuxarı gənclər üçün nəzərdə tutulmuş "Özünü kəşf et" adlı ustad dərsləri bu il də davam edəcək.

Yeni ilin ilk dərsi yanvarın 12-də Miraslan Zeynin iştirakı ilə "Tekstura və kollaj" mövzusuna həsr ediləcək.

Növbəti dərslər yanvarın 19-da Gülarə İsrafilovanın iştirakı ilə "Abstraksiya", yanvarın 26-da isə Kənan Əliyevin iştirakı ilə "Heykəl. Relyef" mövzularına həsr olunacaq.



Qeyd edək ki, təcrübəsindən asılı olmayaraq hər kəs dərslərdə iştirak edə bilər. Bütün ləvazimatlar muzey tərəfindən ayrılır.

Yerlər məhdud olduğundan qeydiyyatdan keçmək zəruridir. Ustad dərsləri ödənişsizdir.

# 73 yaşın sənət şövqü

Yanvarın 9-da milli teatr və kino sənətinin tanınmış nümayəndəsi, Xalq artisti İlham Namiq Kamalın 73 yaşı tamam olacaq. O, 50 ildən artıq bir müddətdə teatr səhnəsində və ekranda bir-birindən maraqlı obrazlar yaratmaqla bərabər, 1995-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqili teatr aktyoru kafedrasının rəhbəri kimi zəngin yaradıcılıq təcrübəsini, bilik və bacarığını sənətdə gənc nəslin yetişməsinə də sərf edir.



Bu gün də sənətkar yorulmaq bilmədən Akademik Musiqili Teatrda bir-birindən fərqli və baxımlı obrazları ilə tamaşaçıları sevindirir. Eyni zamanda televiziya kanallarının, digər media vasitələrinin, mədəniyyət ocaqlarının maraqlı layihələrinə müsbət cavab verməyə çalışır. Bu layihə müəlliflərindən yeganə istəyi odur ki, nə edirlərsə etsinlər, yüksək zövq və səviyyəni heç vaxt unutmasınlar.

İlham Namiq Kamal hər zaman özünü şanslı aktyor hesab edib. Gəncliyindən bu günə qədər ona istədiyi rolları həvalə ediblər. O isə istedad və bacarığını səfərbər edərək yüksək sənət nümunələri yaradır. Özünün dediyinə görə, demək olar ki, həsrətində olduğu heç bir obraz yoxdur. Bu haqda söhbət düşəndə zarafatla deyir ki, mən niyə obrazların həsrətini çəkməliyəm, qoy rollar mənim həsrətimi çəksinlər. İlham Namiq Kamal sənətinin formulu budur.

Onun yaradıcılığında yumora və satiraya meyil güclüdür. Lakin bununla belə aktyor ən müxtəlif janrlarda olan əsərlərdə də maraqlı obrazlar yaradıb. Bu obrazlar bir qayda olaraq daxili və xarici rəngarənglik vəhdətində təqdim olunur, onların bədii bütövlüyü tamaşaçını valeh edir. Aktyor obrazın müəllif ideyasına və rejissor yozumuna müvafiq olaraq Cəfər Cabbarlının yazdığı kimi, "nitq cildi"nin və "hərəkət" toplusunun vəhdətində təqdim edir. Teatrda olduğu kimi, ekranda yaratdığı obrazların da bədii bütövlüyünə və xarakter rəngarəngliyinə çalışır.

Sənətkar son vaxtlar teatrda tamaşaçılarla görüşsə də, ekranlarda bir o qədər də gözə dəymir. Bunun da səbəbləri var. Ona vaxtaşırı ssenarilər təqdim olunur. Amma o, peşəkarlıq baxımından onu qane etməyən ssenarilərdə çəkilmək istəmir. Çünki illər boyu qazandığı tamaşaçı məhəbbətini itirə bilməz. Çəkilməkdən imtina etsə də, həmin insanlara yol göstərməyi, məsləhət verməyi də unutmur.

2020-ci ilin mart ayından pandemiya ilə bağlı bir çox müəssisələrin, o cümlədən teatrların fəaliyyətinə məhdudiyyətlər qoyuldu. 2021-ci ilin oktyabrında, nəhayət, teatrlar fəaliyyətini davam etdirməyə başladı. Pandemiyaya qədər İlham Namiq Kamal Azərbaycan Dövlət Akademik Musiqili Teatrının rus bölməsinin səhnəsində bəstəkar Rauf Hacıyevin "Qafqazlı qardaşqızı" operettasında (quruluşçu rejissor – Əməkdar incəsənət xadimi Əli Usupov) baş rolu – Bəbirli obrazını oynayırdı. Aktyor Bəbirlini koloritli, özünəməxsus düşüncə tərzinə malik bir obraz kimi xarakterizə edir.

Teatrın hələlik axırıncı işi isə Səid Rüstəmov və Məmməd Səid Ordubadinin "Beşmanatlıq gəlin" musiqili komediyasının tamaşasıdır. Səhnə əsəri 1940-cı ildən 1994-cü ilə qədər dəfələrlə müxtəlif rejissorlar tərəfindən tamaşaya qoyulub və həmişə də tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Əsərin yeni quruluşunda (rejissor – Əməkdar incəsənət xadimi Əsgər Əsgərov) əsas obrazlardan birini – Kəblə Hüseynəlini İlham Namiq Kamal oynayır.

Akademik Musiqili Teatrın növbəti işi "Bəxtiyar" tamaşasıdır. Bu tamaşanın mövzusu məşhur "Bəxtiyar" filminin motivləri əsasında işlənib. İlham Namiq Kamal Ağabala obrazı ilə tamaşaçıların görüşünə gələcək. Tamaşanın quruluşçu rejissoru Cavid İmamverdiyevdir. Çox riskli iş olsa da, "Bəxtiyar" filminin maraqlı səhnə versiyasının uğuruna inanırıq.

Bir sözlə, İlham Namiq Kamalın yaradıcılıq sahəsində işləri çoxdur. O isə, həmişə olduğu kimi, zaman azlığından şikayət edir. Daha çox iş görmək istəyir. Yeri gəlmişkən, aktyor 2021-ci ilin son günlərində "Azerbaijan Best Awards" gecəsində "Zəfər zirvəsi" və yaradıcılıq uğurlarına görə "Simurq – 2021" mükafatlarına layiq görülüb.

Sevimli sənətkarımızı doğum günü münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzulayırıq.

Hələ neçə-neçə illər İlham Namiq Kamalı səhnədə və ekranda seyr etmək arzusu ilə

**Çingiz Ələsgərli**
**teatrşünas, dramaturq**

# "Azərbaycan Vətənimdir"

Bakı Kitab Mərkəzində uşaqlar üçün "Azərbaycan Vətənimdir" adlı Yeni il tamaşası göstərilib.



Tamaşa Təhsil Nazirliyinin 2 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi tərəfindən hazırlanıb.

Səhnə əsərinin nümayişindən öncə Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva çıxış edərək Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə qonaqları təbrik edib, onlara xoş arzularını çatdırıb.

Sonra tamaşa nümayiş olunub. Rejissoru Şəhanə Abbaslı olan səhnə əsərində Bakı Kitab Mərkəzinin "Məktəb teatrı" dərnəyinin üzvləri sevimli nağıl qəhrəmanlarını canlandırıblar. Mərkəzin "Uşaq xalq rəqsləri" dərnəyinin üzvləri rəngarəng geyimlərdə ölkəmizdə yaşayan müxtəlif xalqların, etnik qrupların və eyni zamanda uşaqların sevimli cizgi film personajlarının rəqslərini nümayiş etdirib, mahnılar ifa ediblər.

Sonda tamaşanı izləyən Nizami rayonu 1 nömrəli və Xətai rayonu 3 nömrəli uşaq evlərinin sakinlərinə Bakı Kitab Mərkəzi adından Yeni il hədiyyələri təqdim edilib.

# Teatrşünasın yubiley sevinci

Ötən ilin son həftəsinin yaddaqalan tədbirlərindən biri də Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində (28 dekabr) baş tutdu. Muzeydə tanınmış teatrşünas, AMEA Memarlıq və İncəsənət İnstitutu Teatr, kino və televiziya şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) dosenti Vidadi Qafarovun 60 illiyi qeyd edildi.



Tədbirdə yubilyarın müəllimləri, sənət yoldaşları, tələbələri iştirak edirdilər.

Muzeyin direktoru Sevinc Mikayılovanın açılış sözü ilə başlayan tədbirdə V.Qafarovun səmərəli fəaliyyətinə nəzər salındı, onun alim, pedaqoq və həmkar kimi üstün cəhətlərindən danışıldı. İştirakçılar yubilyar haqqında videoçarxa da tamaşa etdilər.

Yubilyarın kurs rəhbəri olmuş professor, teatrşünas Məryəm Əlizadə maraqlı və səmimi detallarla zəngin çıxışında daha çox onun şəxsi keyfiyyətləri – təvazökarlığı, mehribanlığı, zəhmətsevərliyi üzərində dayanaraq Vidadi Qafarovun son illər milli teatrımızın ən məhsuldar tədqiqatçısı olduğunu da əlavə etdi.

Mədəniyyət Nazirliyinin əməkdaşı Emin Əliyev çıxış edərək yubilyara nazirliyin təbrikini çatdırdı.

AMEA-nın əməkdaşları – teatrşünasın alim həmkarları Tehran Əlişanoğlu, Rəcəb Məmmədov, Nərminə Ağayeva və Məlahət Ağayeva da çıxış edərək Vidadi Qafarovun tədqiqatçı, elm adamı kimi xüsusiyyətlərindən, əzmkarlığından danışdılar.

ADMİU-nun Teatrşünaslıq kafedrasının müdiri, professor Aydın Talıbzadə də çıxış edərək Vidadi Qafarova təbriklərini çatdırdı, onun yüksək insani keyfiyyətlərini sadalamaqdan zövq aldığını bildirdi. Kafedranın müəllimi Elçin Cəfərov isə "işıqlı insan" adlandırdığı Vidadi Qafarovun daim öyrənmək və öyrətmək kimi tükənməz istəyindən söz açdı.

Sonda Vidadi Qafarov səhnəyə çıxaraq tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi.

**Həmidə**

# Bakı Uşaq və Gənclər Teatrı şəhid övladları üçün şənlik keçirib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Bakı Uşaq və Gənclər Teatrı paytaxtın Suraxanı, Binəqədi rayonlarında və Sabirabad rayonunda şəhid övladları üçün bayram şənliyi keçirib.



İdarədən bildirilib ki, tədbirdə ictimaiyyət nümayəndələri, şəhid ailələri iştirak ediblər.

Yeni il bayramının ənənəvi personajları Şaxta baba və Qar qız şənliyə qatılaraq uşaqları təbrik edib.

Bayram proqramında həmçinin Bakı Uşaq və Gənclər Teatrının repertuarında "Qış nağılı" və "Ağıllı tülkü" tamaşaları nümayiş olunub.

Şuşanın simaları

# Novator şəxsiyyət, ensiklopedik təfəkkür sahibi

## Mir Möhsün Nəvvab Qarabağın elmi-mədəni həyatında silinməz iz qoyub

Məlum olduğu kimi, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 270 illiyi münasibətilə ölkəmizdə "Şuşa İli" elan edilib. Qədim qala-şəhərimiz Azərbaycan mədəniyyətinin, elminin, ədəbiyyatının inkişafında mühüm rol oynamış məşhur şəxsiyyətlərin yurdudur. Əlamətdar il Şuşanın tarixinə, mədəni həyatına, yetişdirdiyi tanınmış simaların ömür və sənət yoluna yenidən nəzər salmaq üçün fürsət olacaq.

Bu yazıda XIX əsrdə Azərbaycanın Qarabağ bölgəsinin və onun tacı hesab olunan Şuşa ədəbi-mədəni mühitinin yetirdiyi ensiklopedik bilik sahibi Mir Möhsün Nəvvab haqqında söz açacağıq. Dövrünün mütərəqqi fikirli ziyalısı sayılan Nəvvab zamanında musiqiçi, şair, rəssam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı kimi tanınıb.

Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvab 1833-cü ildə Şuşada dünyaya göz açıb. İbtidai təhsilini şəhərdəki ruhani məktəbində alır. Burada ərəb və fars dillərini sonra rus dilini mükəmməl öyrənir. Abbas Sarıcallının mədrəsəsində təsilini davam etdirən Mir Möhsün astronomiya, kimya və riyaziyyata dair biliklər əldə edir. Daha sonra təhsilini sərbəst şəkildə davam etdirir.

Erkən çağlardan elmə və təhsilə dərin maraq göstərir, müxtəlif elm sahələrinə dair araşdırmalara başlayır. O, fikir və mülahizələrini onlarla əsərdə gələcək nəsillərə çatdırıb. M.Füzuli adına Əlyazmalar İnstitutunda Nəvvabın 50-yə qədər əlyazma kitabı qorunur. Bu kitabların əksəriyyəti avtoqraf nüsxələrdən ibarətdir. Onlardan ikisi 1906-cı ildə, biri isə 1907-ci ildə qələmə alınıb. O həm də yağlı boya ilə bir sıra rəsm və miniatürlər ərsəyə gətirib. Xüsusilə "Quşlar", "Güllər", "Teymurun portreti" adlı rəsmləri sənətşünaslar tərəfindən yüksək dəyərləndirilib.



Mir Möhsün Nəvvab eyni zamanda ölkəmizdə kitab çapının əsasını qoyub. Mənbələrdə qeyd edilir ki, onun mətbəəsində Mir Mehdi Xəzaninin "Şəriətül-İslam", Nəcəf bəy Vəzirovun "Sonrakı peşmançılıq fayda verməz" əsərləri 1893-cü ildə, özünün "Kitabi-divani-farsi", "Kitabi-kəşfül-həqayiq", "Şeirlər", "Mərsiyə və qəzəllər", "Dibaçeyi-divani-farsi", "Kitabi-türki, əşari-Nəvvab" və s. əsərləri 1896-1899-cu illərdə daşbasması üsulu ilə çap olunub. O, əsərlərinin litoqrafiya üsulu ilə çapını təmin etmək üçün lazım olan boyaları özünün tərtib etdiyi qaydalar əsasında hazırlayıb.

Nəvvab səma cisimlərinin öyrənilməsi sahəsində də fəaliyyət göstərib. Öz evinə iki teleskop qoyaraq kiçik bir rəsədxana və kimya laboratoriyası yaradıb. Günəş tutulmaları ilə bağlı cədvəllər tərtib edib.

Mədəni təşkilatçı kimi də tanınan şair XIX əsrin 80-ci illərində muğam ustadı Hacı Hüsü ilə birgə "Musiqiçilər məclisi"ni yaradır. Bu məclisdə musiqi sahəsinə dair önəmli məsələlərin müzakirəsi aparılıb. Müzakirələrdə Şuşanın tanınmış xanəndə və musiqiçilərindən Hacı Hüsü, İslam Abdullayev, Cəmil Əmirov, Seyid Şuşinski, Mirzə Sadıqcan yaxından iştirak ediblər. Bir müddət sonra o, "Vüzuhül-ərqam" ("Rəqəmlərin izahı") musiqi risaləsini yazmağı qərara alır. Həmin risalə 1913-cü ildə Bakıda işıq üzü görür.

Musiqişünas alim, akademik Zemfira Səfərova mövzu ilə bağlı araşdırmasında yazır ki, həmin risalədə müəllif ayrı-ayrı muğamların, bəzi dəsgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırıb. Muğamların şeir mətnləri ilə əlaqəsi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunub. M.M.Nəvvab ilk dəfə "dəsgah" termininđən istifadə edib. Qarabağda məlum olan altı dəsgahın – "Rast", "Mahur", "Şahnaz", "Rahavi", (yaxud "Rahab"), "Çahargah" və "Nəva"nın adını çəkib. Nəvvabın yazdığına görə, ifa olunan dəsgahın tərkibi bir çox hallarda ifaçının zövqündən və qabiliyyətindən asılı olur. Həmin əsərdə müəllif Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adını verib.

Görkəmli sənətkar bir neçə muğamın mənşəyini və adının etimologiyasını da araşdırıb. Muğamların adlarını onların yaranmasında rolu olan şəxslərlə və yer adları ilə əlaqələndirib. "Rast" muğamını bahar mehi, "Rahavi"i yağış damcısı, "Çahargah"ı ildırım çaxması, "Dügah"ı çağlayan bulaqla, "Humayun"u quşların uçuşu, "Nəva"nı bədbəxt sevgililərin ah-naləsi, "Mahur"u suların şırıltısı, "Şahnaz"ı bülbüllərin cəh-cəhi, "Üşşaq"ı quşların havada süzməsi, "Üzzal"ı meteoritlərin hərəkəti ilə əlaqələndirib. "Rəqəmlərin izahı" kitabı müəllifi təkcə Azərbaycanda deyil, vətənin hüdudlarından kənarda da tanıdıb.

XIX əsrin 70-ci illərində Mir Möhsün Nəvvab həm də Qarabağ şairlərinin əsərlərini toplayaraq dəyərli bir kitab – təzkirə hazırlayıb. 100-dən artıq şairin həyat və yaradıcılığı haqqında məlumat və əsərlərinin yer aldığı "Təzkireyi-Nəvvab" 1913-cü ildə Bakıda kitab şəklində çap olunub. Toplu Qarabağ bölgəsində ədəbiyyatın inkişafı haqqında geniş təsəvvür yaratmaq baxımından böyük əhəmiyyətə malikdir.

Nəvvabın poetik irsi Azərbaycan və fars dillərində tərtib etdiyi divan və təzkirəsində toplanıb. Şairin 148 səhifədən ibarət farsca divanı 1897-ci ildə, 128 səhifədən ibarət azərbaycanca divanı isə 1898-ci ildə Şuşadakı şəxsi mətbəəsində çapdan çıxıb. Onun "Pəndnamə" ("Nəsihətnamə") əsəri fars dilində 500, Azərbaycan dilində isə 499 nəsihətdən ibarətdir. Nəvvabın etik görüşləri "Kifayətül-ətfal", "Nurül-ənvar" və "Pəndnamə" əsərlərində əksini tapıb.

O, Qarabağda açıqfikirli bir ziyalı kimi tanındığı üçün ətraf bölgələrdən görkəmli saz-söz ustaları onun ətrafına toplaşır. Xan qızı Natəvan tərəfindən Şuşada "Məclisi-üns" ədəbi məclisi yaradılır. Bu ədəbi məclis yaradılarkən unudulan şairlər isə Nəvvabın rəhbərliyində "Məclisi-fəramuşan" ("Unudulmuşlar məclisi") məclisində bir araya gəlirlər. Nəvvab məclis üzvlərini asudə vaxtlarında dünya hadisələri və mədəni yeniliklərlə tanış etmək üçün Bakıda "Əkinçi", Tiflisdə "Ziya" və "Kəşkül" qəzetlərinə, Hindistanda fars dilində nəşr olunan "Həblül-mətin" məcmuəsinə abunə olur.

1903-cü ildə Şuşada Nəvvabın təşəbbüsü ilə qiraətxana-kitabxana yaradılıb. Eyni zamanda o, şəhərdəki ruhani məktəb və mədrəsələrdən fərqli, yeni üsullu təhsil ocaqları (üsuli-cədid) açıb. Həmin məktəblərdə coğrafiya, tarix, ədəbiyyat və dilin tədrisi həyata keçirilib.

Qarabağın ictimai-mədəni həyatında mühüm rol oynayan Mir Möhsün Nəvvab 1918-ci ildə Şuşada vəfat edib.

**Savalan Fərəcov**

# Vətən müharibəsi şəhidlərinin şəxsi arxiv fondları yaradılır



"Milli arxiv fondu haqqında" qanuna uyğun olaraq, 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, həmçinin onlara aid olan sənədlərin vahid şəxsi arxiv fondunda toplanılması, mühafizəsi, istifadəsi və gələcək nəsillərə ötürülməsi məqsədilə müvafiq tədbirlər görülür.

Milli Arxiv İdarəsindən bildirilib ki, bu istiqamətdə görülən işlər çərçivəsində Vətən müharibəsi şəhidlərindən Rəşad Ələkbərov (Laçın istiqamətində döyüşlərdə həlak olub), Oruc Əliyev (Murov döyüşlərində şəhid olub), Nemət Məmmədov (Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olub) və Murad İbrahimovun (Kəlbəcər istiqamətində döyüşlərdə həlak olub) şəxsi sənədlərinin və fotoalbomlarının surətləri Dövlət Arxivinin Gəncə filialına təqdim edilib.

# Xanımana Əlibəyli haqqında biblioqrafiya işıq üzü görüb




F.Köçərli adına Respublika Uşaq Kitabxanasının "Uşaq ədəbiyyatı xəzinəsi" seriyasından tanınmış şair-dramaturq Xanımana Əlibəyli haqqında biblioqrafiya nəşr olunub.

Biblioqrafiya Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, Əməkdar incəsənət xadimi Xanımana Əlibəylinin həyat və yaradıcılığını, ədib haqqında 1936-2020-ci illərdə dərc olunmuş materialları əhatə edir.

Göstəricidə həmçinin şairənin Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunan şəxsi arxiv materialları da öz əksini tapıb.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# "Nizami Gəncəvi İli"nin əks-sədası

## Dövlət Səs Yazıları Arxivi sənədli videoxülasə hazırlayıb

Ötən il dövlət arxivlərində dahi şair Nizami Gəncəvinin irsi ilə bağlı sənədlərin seçilməsi və ictimaiyyətə çatdırılması istiqamətində müvafiq işlər görülüb.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin tabeliyində fəaliyyət göstərən Dövlət Səs Yazıları Arxivi tərəfindən hazırlanmış "Nizami Gəncəvi – 880" adlı sənədli videoxülasə də bu qəbildəndir. Arxivdəki fono və videosənədlər əsasında hazırlanan videoxülasədə Nizami Gəncəviyə həsr olunmuş elmi, mədəni-kütləvi tədbirlərə, görkəmli elm və mədəniyyət xadimlərinin Nizami yaradıcılığı barədə söylədikləri fikirlərə yer verilib.

Nizami Gəncəvinin 800, 840 illik yubileylərinin keçirilməsi, Bakıda şairin heykəlinin ucaldılması və digər mövzular haqqında olan sənədlərin bəziləri ilk dəfə geniş ictimaiyyətə təqdim edilir.

Xronoloji ardıcıllıqla verilən sənədlər haqqında məlumat başlıqlarla açıqlanıb. Videoxülasə Milli Arxiv İdarəsinin rəsmi "Youtube" səhifəsinə yerləşdirilib.

# Yaradıcı nəsillər bir xalıda

Hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan memarlıq abidələri, incəsənət əsərləri, əlyazmalar, bədii-tarixi, yaxud arxeoloji önəm kəsb edən digər əşyalar, kolleksiyalar mövcuddur. UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmış Azərbaycan xalça sənəti dünyada tanınır. Müxtəlif ölkələrin məşhur muzeylərində sərgilənən xalçalarımız Azərbaycanın qədimdən sənətkarlar diyarı və mədəniyyət beşiyi olduğunu sübut edir.

Xalça ustalarımızın ərsəyə gətirdiyi məşhur nümunələrdən biri də həndəsi və nəbati ornamentli, portretlərlə zəngin, həmçinin süjetli, tariximizi və müasirliyimizi özündə əks etdirən "Azərbaycan ulduzları" xalısıdır.

Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, incəsənətinə şöhrət gətirmiş korifeylərin simalarını əks etdirən, ipəklə toxunmuş 150 kvadratmetrlik xalı-pərdə 1998-2012-ci illərdə Musiqili Komediya Teatrının (indiki Akademik Musiqili Teatr) səhnəsini bəzəyib. Hər dəfə tamaşa başlamazdan əvvəl dahi Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüranın sədaları altında xalı-pərdə ahəstə qaldırılırdı. "Azərbaycan ulduzları" adı verilmiş xalı xalqımızın dahi şəxsiyyətlərini bir məkanda birləşdirmişdi. Xalı-pərdənin eskizinin, dəqiqliklə işlənilmiş 16 portretin və Bakının tarixi məkanlarının rəsminin müəllifi Yaqub Mehdiyev (1948-2013), xüsusi incəliklə işlənilmiş ornamental hissənin müəllifi Tariyel Bəşirov olan sənət əsəri ipəklə toxunmuş mədəniyyət aynasıdır. 1992–1996-cı illərdə ən bacarıqlı toxucularımız tərəfindən 40 milyon ilmə vurulmuş bu xalı-pərdə zərgər dəqiqliyi ilə ərsəyə gəlmişdir.

Pərdə kompozisiyasını bəzəyən medalyonlarda Azərbaycanın klassik və müasir ədəbiyyatının, musiqi və teatr sənətinin unudulmaz simaları təsvir edilib. Mədəniyyətimizin sənət inciləri sırasında adı çəkilməyə layiq olan bu xalıda dahi şairlərimiz Nizami Gəncəvi və Məhəmməd Füzuli, Azərbaycan peşəkar vokal sənətinin banisi Bülbül, Azərbaycanın müasir peşəkar musiqi sənətinin banisi Üzeyir Hacıbəyli, böyük bəstəkarlar Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, dirijor və bəstəkar Niyazi, Azərbaycanın ilk peşəkar qadın müğənnisi Şövkət Məmmədova, Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadə, şair-dramaturq Hüseyn Cavid, yazıçı, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi Cəlil Məmmədquluzadə, dramaturq, yazıçı, şair Cəfər Cabbarlı, eləcə də Azərbaycan peşəkar teatr sənətinin banilərindən Hüseyn Ərəblinski, görkəmli aktrisa Mərziyyə Davudova və məşhur aktyor Mirzəağa Əliyevin portretləri əks olunub.

Teatrda tamaşa qabağı açılan xalı-pərdə bu dahi insanları bir məkanda göz önünə gətirirdi. Xalı-pərdəyə baxan insan bir neçə dəqiqə ərzində Azərbaycan mədəni irsinin tarixi inkişaf yolunu addım-addım keçmiş olurdu. Nizaminin, Füzulinin lirikası, Hüseyn Ərəblinskinin, Mirzəağa Əliyevin, Mərziyyə Davudovanın ifa etdiyi rollar, Şövkət Məmmədova və Bülbülün unudulmaz səsləri, Niyazinin, Fikrət Əmirovun, Qara Qarayevin, Müslüm Maqomayevin və Üzeyir Hacıbəylinin bəstələdiyi musiqilər, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin, Mirzə Fətəli Axundzadənin ölməz əsərləri qeyri-ixtiyari olaraq göz qarşısında canlanırdı. Mədəniyyət tariximizi zənginləşdirmiş və bizlərə örnək olan töhfələrini qoymuş bu dühalar teatra gələn tamaşaçılarla daim ünsiyyətdə idilər.

Xalı-pərdənin süjet hissəsini əsrarəngiz haşiyələr və ornamentlər içərisində yerləşdirilmiş Azərbaycan Dövlət Akademik Filarmoniyası, Qız qalasının fonunda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Akademik Milli Dram Teatrı və Akademik Musiqili Teatrı binalarının əksi bəzəyir.

Həndəsi və nəbati ornamentlərlə zəngin pərdə-xalıda rənglərin isti-soyuqluğu, kontrastlığı, olduqca saf və şux rəng ahəngdarlığı, kolorit etibarilə mükəmməl bir sənət əsəri olduğunu sübut edir. Dünya teatrları sırasında belə xalı-pərdəsi ilə fəxr edə biləcək teatr yalnız Azərbaycanda olub.

2012-ci ildə Azərbaycan Dövlət Musiqili Teatrında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə əlaqədar teatrın səhnəsini bəzəyən "Azərbaycan ulduzları" adlı pərdə-xalça Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinə (indiki Milli Xalça Muzeyi) verilib və



Bu xalıda dörd ünsür olan suyun, odun, torpağın və küləyin rəmzi işarələri də yer alıb. Nizaminin sözləri ilə desək –

*Əgər od, su, torpaq, bu əsən külək*
*Bir yerə toplaşsa uyğun gələrək,*
*O böyük Tanrıdan olmasa fərman,*
*Məlumdur ki, gəlməz vücuda bir can.*

10 ilə yaxındır muzeyin fondunda, nəzərdən kənarda saxlanılır. Halbuki Vətənimizə şöhrət gətirəcək bu möhtəşəm sənət əsəri Azərbaycan Milli Xalça Muzeyində sərgilənməyə layiqdir...

**Könül Əzimova**
**Azərbaycan Rəssamlar İttifaqının üzvü**

# "Zəngəzur folkloru: elmi araşdırmalar və perspektivlər"

AMEA-nın Folklor İnstitutunda "Zəngəzur folkloru: elmi araşdırmalar və perspektivlər" mövzusunda elmi videokonfrans keçirilib.

Konfransı giriş sözü ilə açan institutun baş direktoru, akademik Muxtar İmanov şanlı Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı tarixi mərhələdə folklorşünasların qarşısında yeni üfüqlərin açıldığını və onların tərtib, nəşr və elmi araşdırma sahəsində məsuliyyətinin artdığını vurğulayıb. Akademik bildirib ki, Prezidentinin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, Qarabağa, o cümlədən Zəngəzura "Böyük Qayıdış" proqramının elan olunması, bu ərazilərə müasir standartlara cavab verən yolların çəkilməsi, yeni-yeni müəssisələrin və yaşayış məntəqələrinin təməlinin qoyulması və s. kimi möhtəşəm quruculuq işləri bütün digər ictimai-siyasi, milli-mədəni tərəfləri ilə bərabər, itirilmiş folklor mühitlərinin tədricən bərpa edilməsi baxımından da xüsusi tarixi əhəmiyyət daşıyır.

Daha sonra videokonfransda filologiya üzrə elmlər doktoru Əfzələddin Əsgərin "Sonuncu qızılbaşlar: Sobu kəndi", filologiya üzrə fəlsəfə doktoru, dosent Sərxan Xavərinin "Qarabağ və Zəngəzur folklor materialları əsasında "Bənövşə" oyununun strukturu və funksional semantikası", dosent Hikmət Quliyevin "Zəngəzur folklorunda seyidliyin folklor semantikası: müdrik qoca arxetipi kontekstində sakral simvollaşdırma" və dosent Səfa Qarayevin "Toy mərasimindəki ritual elementlərin simvolik semantikası (Qarabağ və Zəngəzur materialları əsasında)" mövzularında məruzələri dinlənilib.

# Sənətinin ustadı

## O, heç vaxt oynamırdı, yaratdığı, səsləndirdiyi rolları daxilən yaşayırdı

Hər bir film sənət duyumu güclü, fərdi istedadı, bacarığı böyük olan sənətkarlar sayəsində məşhurlaşır, sevilir, baxılır. Eləcə də aktyorlar oynadıqları ekran əsərləri ilə məşhurluq qazanırlar. Əməkdar artist, Dövlət mükafatı laureatı Səməndər Rzayev də teatrla bərabər kinoda yaratdığı rolları ilə də tanındı, sevildi.

Uşaq yaşlarından sənət arzusunu qəlbində cücərdən, sevdiyi məsləyinə qovuşduqdan (Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsini 1968-ci ildə bitirib) sonra isə məslək borcunu böyük məsuliyyət, coşqu ilə təqdim edən sənət vurğunu müxtəlif xarakterli personajlarını yaddaşlarda əbədiləşdirdi.

Aktyorun filmoqrafiyasında 60-dan çox ekran əsəri var. Onların içərisində bədii filmlərlə yanaşı "Mozalan" satirik kinosüjetlərinə çəkildiyi rollar, həmçinin dublyaj redaksiyasında səsləndirdiyi obrazlar var. Sənəti daim uca tutan istedad sahibi oynadığı rolları həyatı dərk etdiyi, öyrəndiyi, bildiyi kimi, bütün səciyyəvi cəhətləri, mənası, çoxlarımızın görə, duya bilmədiyi tərəfləri ilə cilaladı, anlatdı.

Ustad sənətkarımızı anadan olmasının 76-cı ildönümündə (2.1.1945 – 27.3.1986) sənət dostları və həmkarlarının xatirə işığında bir daha yad edək, daha yaxından tanıyaq.

### Xatirələrdə yaşanan ömür

Xalq artisti Xalidə Quliyeva: "Səməndər Rzayev həm istedadlı, həm də özünəməxsus xarizması olan bir sənətkar idi. Cüssəli olsa da, daxili aləmi həlim, aurası xoş, ünsiyyətcil idi və insanlarla mədəni davranırdı. Onunla birlikdə "Azərbaycanfilm" Kinostudiyasının dublyaj redaksiyasında çalışmışıq. Gözəl kollektivimiz vardı. Xalq artistləri Əminə Yusifqızı, Şahmar Ələkbərov və təbii ki, Səməndər Rzayevlə birlikdə çox filmlər səsləndirmişik. Səməndər mülayim insan idi. Bəzən cavan aktyorlar mətni bir neçə dəfə təkrar etməli olurdular. Belə olanda Səməndər heç vaxt etirazını bildirmir, əksinə, həmişə onlara kömək edirdi. Səsini heç vaxt oynatmırdı. Necə danışırdısa, dublyajı eləcə, sərbəst şəkildə edirdi.





Sonra mən İncəsənət İnstitutuna daxil oldum. İkinci kursdan səhnə danışığı müəllimimiz Əliabbas Qədirov oldu. Bir dəfə mənə "Telestudiyada tamaşamız olacaq. Tamaşada oynamaq üçün cavan qızlar lazımdır, gəl səni də aparım. Bilirəm ki, sən bacaracaqsan" dedi.

Mən telestudiyaya gedəndə orda çox gözəl aktyor ansamblı gördüm. Səməndər Rzayev də orda idi. Onunla ilk dəfə həmin tamaşada tərəf-müqabil oldum. Ahəngdar, qulağıoxşayan səsi vardı. Səsi çox xoşuma gəlirdi. İllər ötdü, kinostudiyada işə düzəldim. Orda məni dublyaja cəlb etdilər. Biz yenə də həmkar kimi çiyin-çiyinə çalışdıq.

Hər kəsi kənardan müşahidə edirdim. Orda bizə heç kim heç nəyi öyrətmirdi. Dublyaja hərənin bir cürə yanaşması vardı. Amma Səməndərdə xüsusi, qeyri-adi bir özəllik gördüm. Filmləri hissə-hissə fırladırdılar ki, aktyorlar özlərinə aid olan epizodları görsün. Səməndərdən başqa hər kəs özünə aid olan hissəni yazır, sinxron etmək üçün müxtəlif qeydlər aparırdı. Mən düşündüm ki, axı o, niyə belə edir… Bu mənə maraqlı gəldi. Axıra qədər onu müşahidə etdim. O, hərdənbir ekrana nəzər salır, eyni zamanda da yanındakı adamla söhbət edirdi. Hərdən yenə ekrana baxır, yenidən söhbətini davam etdirirdi. Çarx bir neçə dəfə fırlandıqdan sonra səsləndi ki, daha bəsdi, gəlin yazaq. Rejissor və assistent soruşanda ki, "Səməndər müəllim, hazırsınız...", deyirdi "hə ey, ver gəlsin, başlayaq". O, hər bir epizodu elə sərrast, mükəmməl edirdi ki, təəccüblənməyə bilmirdik. Biz ona valeh olurduq.





İmprovizəni çox sevirdi. Ümumiyyətlə, o, heç vaxt oynamırdı. Rollarını da, səsləndirməni də daxilən yaşayırdı...".

Əməkdar artist Nəcibə Hüseynova: "Hələ orta məktəbdə oxuyarkən tez-tez teatra gedirdim. Səməndər Rzayevi də tamaşalarda görmüşdüm. Aktyor olaraq xarici görünüşü, oyun tərzi ilə seçilirdi. Həmin vaxtlar dəb olmasa da, onun saçları uzun idi. Elə buna görə də hafizəmdə həkk olub qalmışdı.

Onun çox dərin səs duyumu vardı. Dinləyəndə artıq bilirdi ki, harada pauza olacaq, harada danışacaq və ya improvizə edəcək. Həqiqətən də, qeyri-adi istedada malik bir aktyor idi. Hamımız xətrini çox istəyirdik. Xəstələndiyini eşidəndə çox pis olduq. Sağ qalsaydı, daha çox işlər görə bilərdi...".

Əməkdar incəsənət xadimi Elxan Cəfərov: "Səməndər Rzayev mənim üçün uşaqlığımdan tanıdığım, çox yaxın əhatəmdə olan insanlardan biri idi. Mən 6 yaşımdan dublyajda iştirak edirdim, filmlərdə uşaq rollarını səsləndirirdim. Həmçinin "Azərbaycanfilm"də istehsal olunan filmlərdə uşaq rollarına çəkilirdim. Buna görə də mənə həmişə "geroy" (qəhrəman) deyirdi. Onun mənə daim məxsusi münasibəti olub. O, biz uşaqlar, balacalar üçün böyük, nəhəng bir əmi idi. Çox doğma bir insan idi.

Səməndər Rzayevlə ilk tanışlığım dublyaj studiyasından başladı. Həmin vaxtlarda mikrofona boyum çatmadığından ayağımın altına stul qoyurdular. Ətrafımda olan böyüklərin ciddi iş gördüklərini anlayırdım və bu mənə olduqca maraqlı gəlirdi. Mənim də bu insanların içərisində ciddi bir işlə məşğul olduğumu bilir, bununla da qürur hissi keçirdirdim.

Yadımdadır ki, səsyazma pultunun arxasında kürsünün qarşısına mətn qoyulurdu. Ora parça da çəkilmişdi. Aktyorlar rol səsləndirəndə həmin parçanın üzərinə müxtəlif qeydlərini edir, imzalarını atırdılar. Səsləndirmədə bəzən 3-5 dəqiqə pauza olurdu. O zaman Səməndər müəllim həmin parçanın üzərində əlindəki qələmlə müxtəlif şəkillər çəkirdi. Onun belə gözəl əl qabiliyyətinin olması mənə qəribə gəlirdi. Şəkillərin yaranma anına maraqla baxırdım. Səməndər müəllim görəndə ki, onu maraqla izləyirəm, daha maraqlı personajlar çəkirdi.

"Bağ mövsümü" filminə çəkilənə qədər 3-4 il olardı ki, "Azərbaycanfilm"ə getmirdim. Uzun müddətdən sonra yenə çəkiliş meydançasında Səməndər Rzayevlə görüşdük. Yenə də məni kinostudiyada görəndə uca səslə "ooo, geroy, sən yenə burdasan… Gör bir nə vaxtdandır görüşmürük" deyə səsləndi.

O, mənim yadımda çox əziz insan kimi qalıb. Gözəl qəlbi vardı. Həm xoşxasiyyət insan, həm də böyük sənətkar idi. Allah ona rəhmət eləsin...".

Kinoaktyor Məhəmməd Səfər Verdizadə: "Azərbaycan aktyor sənəti tarixində az aktyor var ki, onlar anadangəlmə aktyordular. Onlardan biri də Səməndər Rzayevdir. Onun oynadığı rolları hər dəfə izləyəndə düşünürəm ki, o, oynamayıb, rollarının hamısını yaşayıb. Çəkisi artıq, ayağında problem olmasına baxmayaraq, fiziki və daxili aktyor plastikasına malik olan aktyor idi.

Onunla birlikdə "Babək" filminə çəkiləndə Naxçıvanda, Culfa rayonunun Əbrəqunus kəndində bir ay bir yerdə qaldıq. İnternat məktəbinin həyətindəki evdə yaşayırdıq. Hər gün görüşürdük. Səməndər həm böyük aktyor, həm də sadəlövh bir uşaq idi. Naxçıvan əhli bilirdi ki, biz filmə çəkilirik. Rasim Balayevi, Şahmar Ələkbərovu, Səməndər Rzayevi yaxşı tanıyırdılar. Hər gün kimsə gəlib mütləq bizi qonaq aparırdı. Hamısı da "06" markalı "Jiquli" maşınında gəlirdi. Səməndər isə iricüssəli olduğundan həmin maşınlara yerləşmirdi. Bir gün mənə dedi ki, belə yox, "Volqa" markalı maşın gələndə məni çağırarsan...". Bir gün bizi qonaq aparmaq üçün arxamızca "Volqa" maşını göndərmişdilər. Səməndər ümumi binada yaşayırdı, mən isə Rasim Balayevlə internatın həyətində birotaqlı evdə. Gedib Səməndərə dedim ki, arxamızca "Volqa" gəlir. O, maşın gələn kimi sevinərək hamıdan əvvəl gedib maşında oturdu. Bizi Batabata qonaqlığa apardılar. Mən onda gördüm ki, Səməndər daxilən həm də sadə bir uşaqdır.

Səməndərlə birlikdə İncəsənət İnstitutunda müəllim də işləmişik. Onunla institutun dəhlizində görüşəndə hal-əhval tutdum və soruşdum ki, səndən nə əcəb burdasan. Dedi ki, mən burda saatsaz işləyirəm. Dedim nə saatsaz, dedi saathesabı dərs deyirəm. Həmin vaxtdan Səməndərin sözü ilə dostlarımız arasında saathesabı işləyən görəndə saatsaz deyirik. Onda çox zarafatcıl ifadələr vardı. Biz hələ də onun bəzi baməzə ifadələrindən istifadə edirik.

Səməndərin yaradıcılığı bir məktəb idi. Dublyajda da mahir sənətkar idi. Onun Azərbaycan Radiosunda hər bazar günü səslənən "Bulaq" verilişindəki çıxışını dinləyirdim. İstəyirdim ki, onun kimi danışım. Ancaq sonra başa düşdüm ki, onun kimi danışmaq mümkün deyil. Çünki bu öyrədilməyən bir məktəbdir və anadangəlmə xüsusiyyətdir ki, ancaq ona məxsusdur. O, sözləri sanki canlandırırdı, dirildirdi. Mənasız sözü belə öz xüsusi ahəngi, mənalı ifadəsiylə işlədirdi, mənasını cilalayırdı.

"Babək" filmində bir səhnə var ki, hamı Babəkin görüşünə atla gəlir, onu salamlayır. Həmin səhnədə Səməndər də (İbn Bəis) atla gəlib Babəklə görüşməli idi. Çəkilişdə filmin rejissoru Eldar Quliyev nə qədər çalışdısa, onu ata mindirə bilmədi. Çünki Səməndər həm atı sürə bilmirdi, həm də ayağı zədəli idi. Eldar müəllim deyəndə ki, ata minməlisən, başqa cürə mümkün deyil. Səməndər dedi ki, çəkim çoxdur, ayağım da zədəlidir. Yıxılsam ikinci ayağım da zədələnəcək. Eldar müəllim dedi ki, bəs necə gələcəksən? Dedi narahat olmayın, elə gələcəm ki, razı qalacaqsınız. O, çəkiliş meydançasında olan insanların arxasına keçdi. Biz düşündük ki, yəqin ata birtəhər minmək üçün nəsə fikirləşib. Babəklə qonaqların görüşdüyü kadrlar çəkiləndə gördük Səməndər atı darta-darta gətirdi, çox sərbəst şəkildə özünə aid olan nitqi söylədi, çəkildi. Eldar müəllim də razı qaldı. Biz həmin vaxt Səməndərin yaradıcılıq taktikasının zənginliyini, sənətinin bilicisi olmasının bir daha şahidi olduq...".

**Şəhla Əmirli**
**kinoşünas**

---

## "Balaban – sirli musiqi irsi"

### Musiqi albomu hazırlanıb




Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə yardımı ilə "Balaban – sirli musiqi irsi" ("Balaban – Mysterious Musical Heritage") adlı musiqi albomu hazırlanıb.

Fonddan bildirilib ki, əsas məqsədi Azərbaycan musiqi mədəniyyətinin, xalq və bəstəkar mahnılarının, musiqi sənətimizdə məxsusi yeri olan balabanın tanıdılması və mədəni irsimizin təbliği məqsədilə həyata keçirilən layihənin hazırlıq işləri İstanbulda və Bakıda aparılıb.

Layihənin rəhbəri Türkiyədə yaşayan istedadlı balaban ifaçısı Ələfsər Rəhimov, musiqişünas, sənətşünaslıq elmləri doktoru, professor Cəmilə Həsənova, musiqi redaktoru Hilal Bəyazid, prodüseri sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov, dizayneri Kamran Nəcəfovdur.

Diskdə toplanan ifalarda Ələfsər Rəhimovu istedadlı musiqiçilər – Əməkdar artist Şəhriyar İmanov, Etibar Əsədli, Murat Süngü, Elçin Hətəmli, Dəniz Tuncer, Ozan Sarıboğa və başqaları müşayiət edib.

Musiqi albomunda Azərbaycan xalq mahnıları, həmçinin Rauf Hacıyev, Polad Bülbüloğlu, Tofiq Quliyev, Cahangir Cahangirov və başqa görkəmli bəstəkarlarımızla yanaşı, xarici bəstəkarların da əsərləri yer alıb. Həmçinin milli musiqi alətimiz balaban və diskdə yer alan ifalar haqqında ingilis dilində məlumatlar verilib.

Disk ölkəmizdən kənarda həyata keçirilən tədbirlərdə əcnəbi qonaqlara təqdim olunacaq.

---

## Xatirə təqvimi — 3–9 yanvar

### Azərbaycan

**3 yanvar 1907** – Məşhur pianoçu, Xalq artisti, professor Kövkəb Kamil qızı Səfərəliyeva (1907 – 27.6.1985) anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) dərs deyib, konservatoriyanın nəzdində Orta ixtisas musiqi məktəbinin (hazırda Bülbül adına məktəb) direktoru olub.

**3 yanvar 1944** – Əməkdar rəssam Arif Qəndi oğlu İsmayılov (1944 – 9.10.2014) anadan olub.

**4 yanvar 1932** – Görkəmli yazıçı, dramaturq, publisist, naşir Cəlil Hüseynqulu oğlu Məmmədquluzadə (22.2.1869 – 1932) vəfat edib. Realist hekayələri, povestləri, dram əsərləri ("Dəli yığıncağı", "Anamın kitabı", "Ölülər") ilə Azərbaycan ədəbiyyatına töhfələr verib. 1906-1932-ci illərdə (fasilələrlə) nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalı ilə Azərbaycanda satirik jurnalistikanın əsasını qoyub.

**4 yanvar 1946** – Satirik şair, "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsi Əli Nəzmi (Əli Məhəmməd oğlu Məmmədzadə; 1878-1946) vəfat edib. Kitabları: "Sijimqulunamə", "Satira mərmiləri" və s.

**4 yanvar 1946** – Xalq artisti Rafael Məlik oğlu Dadaşov (1946 – 16.3.2020) Zaqatalada doğulub. Akademik Milli Dram Teatrının səhnəsində, filmlərdə ("Bəxt üzüyü", "Mənim ağ şəhərim"), televiziya tamaşalarında ("Ordan-burdan", "Göz həkimi" və s.) yaddaqalan rollar oynayıb.

**4 yanvar 1983** – Tanınmış rəssam İbrahim Səfi (İbrahim Qafar oğlu Səfiyev; 1898-1983) İstanbulda vəfat edib. Naxçıvanda doğulub. Türkiyədə yaşayıb-yaradıb. Atatürkün portretini çəkən ilk rəssamlardan biridir.

**4 yanvar 2000** – Xalq artisti Sofiya Bəşir qızı Bəsirzadə (Vəzirova; 28.2.1918 – 2000) vəfat edib. 1938-ci ildən Akademik Dram Teatrında çıxış edib. "Şərikli çörək", "Romeo mənim qonşumdur", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**5 yanvar 1884** – Opera müğənnisi, teatr xadimi Əhməd Bəşir oğlu Ağdamski (Bədəlbəyli; 1884 - 1.4.1954) Şuşada doğulub. Üzeyir Hacıbəylinin xalası oğludur. Azərbaycan teatrında azərbaycanlı aktrisaların olmadığı vaxtlarda tamaşalarda qadın rollarını (o cümlədən "Leyli və Məcnun"da Leyli) oynayıb. 1934-cü ildən pedaqoji fəaliyyətlə məşğul olub, Ağdaş musiqi məktəbində tar müəllimi işləyib.

**5 yanvar 1887** – Tarzən, Əməkdar incəsənət xadimi Mirzə Mənsur Məşədi Məlik oğlu Mənsurov (1887 – 30.6.1967) anadan olub. Qəzəl və qoşmalar yazıb. Tanınmış tarzənlər Ənvər Mənsurovun atası, Bəhram Mənsurovun əmisidir.

**5 yanvar 1910** – Ədəbiyyatşünas Məmmədağa Sultan oğlu Sultanov (1910 – 19.1.1991) Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. "Kəlilə və Dimnə" kitabından şeirləri, Füzulinin, Nəsiminin farsca yazdığı əsərləri dilimizə tərcümə edib.

**5 yanvar 1924** – Azərbaycanın ilk epiqrafçı qadın alimi, tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü Məşədixanım Sədulla qızı Nemətova (1924 – 26.12.2016) Bakıda anadan olub. 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nu tərtib edib.

**5 yanvar 1927** – Yazıçı Əlfi Səhlik oğlu Qasımov (1927 – 12.3.1985) Ağdam rayonunun Poladlı kəndində anadan olub. "Toy gecəsi", "Adilənin taleyi" romanları, "Məni qınamayın", "Qızburunda tək məzar" povestləri və s. əsərlərin müəllifidir.

**6 yanvar 1893** – Xalq artisti Pyotr Borisoviç Yudin (1893-1977) anadan olub. 1946-cı ildən Azərbaycan Dövlət Rus Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

**6 yanvar 1907** – Görkəmli aktyor, SSRİ Xalq artisti İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev; 1907 – 1.4.1980) Qax rayonunun Zərnə kəndində doğulub. Akademik Milli Dram Teatrının səhnəsində klassik obrazlar silsiləsi yaradıb. "Səbuhi" (Mirzə Fətəli), "Qatır Məmməd" (Fətəli xan Xoyski) və s. filmlərdə çəkilib.

**6 yanvar 1914** – Əməkdar artist Nəcibə Məcid qızı Behbudova (1914-1999) Tiflisdə anadan olub. Rəşid Behbudovun böyük bacısıdır. Tiflis Azərbaycan teatrında, Musiqili Komediya Teatrında çalışıb, filmlərə çəkilib.

**6 yanvar 1938** – Görkəmli şair Mikayıl Müşfiq (Mikayıl Əbdülqadir oğlu İsmayılzadə; 5.6.1908 – 1938) dünyasını dəyişib. Yeniyetmə vaxtlarından yaradıcılığa başlayan şair repressiya qurbanı olub. Pantürkizm və millətçilikdə ittiham edilərək güllələnib.

**6 yanvar 1962** – SSRİ Xalq artisti Mərziyyə Yusif qızı Davudova (8.12.1901 – 1962) vəfat edib. Həştərxanda doğulub, 1920-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**7 yanvar 1919** – Əməkdar mədəniyyət işçisi, kinooperator, rejissor Vladimir Yevgenyeviç Konyagin (1919-2002) anadan olub. 1950-80-ci illərdə "Azərbaycanfilm" Kinostudiyasında 100-dək sənədli film çəkib, Dövlət mükafatına layiq görülüb.

**8 yanvar 1903** – Azərbaycan teatrının tanınmış simalarından olan Ülvi Rəcəb (Ülvi Rəcəb Molla oğlu Şaşıqzadə; 1903-1938) Batumi yaxınlığındakı Canivri kəndində doğulub. Batumidə teatr tamaşalarında, 1922-ci ildən Tiflisdəki Azərbaycan teatrında çıxış edib. 1925-ci ildə Bakıya gəlib və Akademik Dram Teatrında işləməyə başlayıb. Stalin repressiyalarının qurbanı olub.

**8 yanvar 1920** – Xalq artisti, görkəmli aktrisa Leyla Ağalar qızı Bədirbəyli (1920 – 23.11.1999) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, "Səbuhi", "Arşın mal alan" (1945), "Fətəli xan", "Görüş", "Onun böyük ürəyi", "Dərviş Parisi partladır" və s. filmlərdə çəkilib. Azərbaycan və SSRİ Dövlət mükafatına layiq görülüb.

**9 yanvar 1936** – Əməkdar rəssam, heykəltəraş Asim Rzaqulu oğlu Quliyev (1936 – 25.5.2012) Bakıda doğulub. Sumqayıtdakı "Sülh göyərçini" abidəsinin həmmüəllifidir

**9 yanvar 1991** – "Molodyoj Azerbaydjana" qəzetinin xüsusi müxbiri Salatın Əsgərova (1961-1991) Laçın rayonunda erməni silahlı qüvvələri tərəfindən qətlə yetirilib. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

**9 yanvar 2016** – Xalq şairi Zəlimxan Yusif oğlu Yaqub (21.1.1950 – 2016) vəfat edib. "Könlümün səsi", "Yolum eldən başlanıb", "Od aldığım ocaqlar", "Bir əlim torpaqda, bir əlim haqda", "Şairin taleyi" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995-2005), Azərbaycan Aşıqlar Birliyinin sədri (2008-2016) olub.

### Dünya

**3 yanvar 1929** – İtalyan kinorejissoru Serco Leone (Sergio Leone; 1929-1989) anadan olub.

**4 yanvar 1785** – Alman folklorçusu, filoloq Yakob Qrim (Jacob Ludwig Karl Grimm; 1785-1863) anadan olub.

**4 yanvar 1960** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1957) laureatı Alber Kamyu (Albert Camus; 7.11.1913 – 1960) avtomobil qəzasında həlak olub.

**5 yanvar 1921** – İsveçrə yazıçı-dramaturqu Fridrix Dürrenmatt (Friedrich Josef Dürrenmatt; 1921-1990) anadan olub.

**5 yanvar 1932** – İtalyan yazıçısı, filosof və tarixçi Umberto Eko (Umberto Eco; 1932 - 20.2.2016) anadan olub.

**6 yanvar 1872** – Rus bəstəkarı Aleksandr Nikolayeviç Skryabin (1872 – 27.4.1915) anadan olub.

**7 yanvar 1925** – İngilis yazıçısı Cerald Darrel (Gerald Malcolm Durrell; 1925-1995) anadan olub.

**8 yanvar 1910** – Məşhur rus balerinası, SSRİ Xalq artisti Qalina Sergeyevna Ulanova (1910 - 1998) anadan olub.

**8 yanvar 1935** – Amerika müğənnisi, aktyor Elvis Presli (Elvis Aaron Presley; 1935 – 16.8.1977) anadan olub.

**9 yanvar 1890** – Çex yazıçı-dramaturqu Karel Çapek (Karel Capek; 1890-1938) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# "Dubay Ekspo"dakı Azərbaycan pavilyonunda təqdimatlar davam edir



Xəbər verdiyimiz kimi, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən dünya sərgisində ("Ekspo Dubay – 2020") ölkəmiz də təmsil olunur. Sərgi kompleksindəki Azərbaycan pavilyonunda müxtəlif təqdimatlar, konsert proqramları təşkil edilir. Dekabrın "Ekspo Dubay – 2020"-nin Dubay Millenium amfiteatrında Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan ritmləri və rəqsləri" adlı möhtəşəm konsert proqramı təqdim olunmuşdu.

Azərbaycan pavilyonunda Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Odlar Yurdundan musiqi" adlı konsert keçirilib. Konsertdə tanınmış ifaçılar – Ceyla Seyidova (skripka), Nərgiz Əliyeva (piano) və Sahib Paşazadə (tar) dünya və Azərbaycan klassik və milli musiqilərini təqdim ediblər. Pavilyonumuzun ziyarətçiləri pianoda Nizami Əliyev və Raci Hüseynovun ifasını da dinləyiblər. Konsert proqramı böyük maraqla və alqışlarla qarşılanıb.

"Dubay Ekspo – 2020" sərgisindəki Azərbaycan pavilyonunda daha bir təqdimat – "Dance Ability Azerbaijan" inklüziv performans şirkətinin "Bədənimin danışacaq hekayəsi var" adlı rəqs tamaşası nümayiş etdirilib. Əlilliyi olan şəxslərin iştirak etdiyi tamaşa Heydər Əliyev Fondunun və BMT-nin Uşaq Fondu – UNİCEF-in dəstəyi ilə reallaşıb.

Heydər Əliyev Fondu ilə UNİCEF arasında ötən ilin dekabrında anlaşma memorandumu imzalanıb. Memorandum 2025-ci ilin sonunadək Azərbaycanda uşaqların erkən uşaqlıq dövründə inkişafı, inklüziv təhsil, yeniyetmə və gənclərin inkişafı sahəsində müxtəlif layihələrin həyata keçirilməsini nəzərdə tutur. Bu istiqamətdə görülən işlər çərçivəsində əlilliyi olan uşaqlardan ibarət rəqs qrupunun "Dubay Ekspo"da konsert proqramı dünya sərgisinin ziyarətçiləri tərəfindən maraqla qarşılanıb.



Xatırladaq ki, "Dubay Ekspo – 2020" ötən il oktyabrın 1-dən fəaliyyətə başlayıb. 2020-ci ildə açılması nəzərdə tutulan, lakin pandemiya səbəbindən ertələnən sərgidə 190 ölkə təmsil olunur. Sərgi 2022-ci il martın 31-nə qədər davam edəcək.

Ölkəmiz sərgidə Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Gələcəyin toxumları" mövzusu ilə çıxış edir. Ağac və onun budaqları formasında qurulan üçmərtəbəli pavilyonun konsepsiyası təsdiq edir ki, yalnız insan kapitalının inkişafı ilə dayanıqlı gələcəyə nail olmaq mümkündür. Pavilyonda müxtəlif mədəni proqramlarla yanaşı, Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, müasir incəsənəti və digər mövzularda videoçarxlar təqdim edilir, eləcə də ölkəmizdəki iqtisadi və sosial sahələrdə davamlı inkişaf və innovasiyalar, 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş torpaqlarda aparılan quruculuq işləri haqqında məlumat verilir. Sərgidə ölkəmizin aparıcı muzeylərinin fondlarından eksponatlar (musiqi alətləri, xalçalar və s.) nümayiş olunur.

# Türkiyəli uşaqlar nağıl qəhrəmanlarımızı və Qarabağ Zəfərini öyrənəcək

Türkiyənin Təhsil üzrə Azad Həmkarlar İttifaqı (TAHİ – Türk Eğitim-Sen) Türk dünyasından bəhs edən 3 yeni kitab nəşr etdirib.




"Türk dünyası müstəqilliyinin 30-cu ildönümündə" adlı kitabda türk respublikalarının müstəqillik dövrünü qiymətləndirmək üçün öz sahələri üzrə tanınmış müəlliflərin araşdırma yazıları toplanıb.

30 il əvvəl müstəqillik qazanmış türk respublikaları, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyəti folkloruna məxsus nağıl və oyunlardan seçilmiş nümunələr isə iki ayrı kitabda nəşr olunub. "Türk dünyasından uşaqlar üçün nağıllar" adlı topluda türkiyəli uşaqlar digər türkdilli dövlətlərdən olan həmyaşıdlarının nağıl qəhrəmanları ilə tanış olacaqlar.

"Türk dünyasından uşaqlara oyunlar" adlı kitabda isə azyaşlı oxucular türk xalqlarının folklorunda öz əksini tapan, türk mədəniyyəti ilə qurulmuş oyunları öyrənəcəklər.

"Bu iki araşdırmada hər bir müstəqil türk dövləti və onun dünyadakı yeri haqqında qısa məlumatlar da yer alıb. Azərbaycanın qazandığı Qarabağ Zəfərinin də təcəssümü olan birlik şüurunun bütün çətinliklərə sinə gərməyə qadir olduğu da kitabda əksini tapıb", – deyə TAHİ-dən verilən məlumatda bildirilib.

Məlumatda həmçinin Türkiyə Cümhuriyyətinin qurucusu böyük Atatürkün "Türk birliyinin bir gün gerçəkləşəcəyinə inanıram. Bunu mən görməsəm də, gözlərimi dünyaya bu xəyallar içində yumacağam" fikirləri də xatırladılır. "Bu cür nəşrlərin hər zaman düşüncələrimizdə olan böyük Atatürkün Türk dünyası ilə bağlı fikirlərinin reallaşmasına dəstək olacağına inanırıq", – deyə qeyd olunur.

**Mehparə Sultanova**
**Ankara**

# Rusların ənənəvi geyim nümunələri Bakıda nümayiş olunacaq

Rusiya Etnoqrafiya Muzeyi (REM) 2022-ci ilin payızında Bakıda rusların dekorativ-tətbiqi sənət nümunələrinə dair genişmiqyaslı sərgi təqdim edəcək.

Muzeyin direktoru Yuliya Kupina bildirib ki, Rusiya Federasiyası mədəniyyət müəssisələrinin iştirakı ilə hazırlanan layihə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində keçiriləcək.

"Biz Azərbaycan Milli Xalça Muzeyi ilə dostuq. Muzey rus xalqının mədəniyyətinə məxsus dekorativ-tətbiqi sənət nümunələrini təqdim etmək niyyətindədir. Onları daha çox qadın gözəlliyini əks etdirən





ənənəvi geyimlər maraqlandırır", - deyə Yuliya Kupina söyləyib.

Onun sözlərinə görə, proqram çərçivəsində Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu ölkənin müvafiq qurumlarını təmsil edən heyətin Azərbaycana səfəri təşkil olunacaq. REM direktoru bildirib ki, muzey Natalya Şabelskayanın XX əsrin əvvəllərinə aid geniş kolleksiyasının mühüm hissəsini Bakıda nümayiş etdirəcək.

Qeyd edək ki, Natalya Şabelskaya Rusiyanın bütün əyalətlərindən köhnə rus geyimləri, qədim naxış işləmələri, krujeva parçaları, əyirici çarxlar, qurabiyə hazırlamaq üçün taxta qəliblər, oyuncaqlar, arxeologiya nümunələrinin unikal kolleksiyalarını toplayıb.

# İtaliyadan qaçaqmalçılıq yolu ilə ABŞ-a aparılan eksponatlar geri qaytarılır



Son illərdə İtaliyadan qanunsuz yolla çıxarılan, ABŞ-ın muzey və qalereyalarında nümayiş etdirilən 201 qiymətli tarixi eksponat geri qaytarılacaq.

Tarixi əsərlərin ümumi dəyərinin 11 milyon dollardan çox olduğu bildirilir. Həmin eksponatlar Belçika, Niderland, İsveçrə və Almaniyadakı qaçaqmalçılıqla məşğul olan qrupları da hədəf alan böyük əməliyyatlarda ələ keçirilən və ya İtaliyaya qaytarılan minlərlə tarixi əsərin mühüm hissəsini təşkil edir.

Amerika rəsmiləri 201 əsərdən 161-nin artıq İtaliyaya göndərildiyini, 40-nın isə cari ilin mart ayına qədər İtaliyanın Nyu-Yorkdakı Baş Konsulluğunda nümayiş olunacağını bildiriblər.

İtaliyanın mədəniyyət naziri Dario Françeşini deyib ki, eksponatlar oğurlandıqları şəhərlərdəki muzeylərə qaytarılacaq.

# Türkiyənin turizm sektoru 2021-ci ili daha az zərərlə başa vurub

Artıq iki ildir dünyada hökm sürən COVİD-19 pandemiyasından ən çox zərər çəkən sahələrdən biri də turizmdir. Milli gəlirinin əhəmiyyətli hissəsini turizm sektorundan əldə edən Türkiyə bir çox ölkələrdən fərqli olaraq 2021-ci ili bu sahə üzrə daha az zərərlə başa vurub.




Türkiyədə 2020-ci ildə turizm sektoru 60 faiz zərər görüb. Keçən ilin ilk yarısında da pandemiya ölkədə təsirli olub. Lakin peyvəndlənmənin sürətlənməsi və səyahət məhdudiyyətlərinin nisbətən aradan qaldırılması ilə 2021-ci ilin ikinci yarısında bu sahədə canlanma müşahidə edilib.

Türkiyənin Statistika Komitəsinin məlumatına əsasən, 2019-cu ilin yanvar-sentyabr ayları üzrə turizmdən əldə edilən gəlir 26,6 milyard ABŞ dolları təşkil edib. 2021-ci ilin ilk doqquz ayı ərzində ölkəyə gələn ziyarətçilərdən əldə edilən gəlir 2020-ci il ilə müqayisədə 107 faiz artaraq 16,85 milyard dolar olub. Bununla da Türkiyə bir çox ölkə ilə müqayisədə turizm sektoru üzrə ili daha az zərərlə tamamlayıb.

Türkiyə Səyahət Agentlikləri Birliyinin (TÜRSAB) rəhbəri Firuz Bağlıkaya 2022-ci ilin ümidverici olduğunu bildirib. 2021-ci ilin ikinci yarısında Türkiyənin Səhiyyə Nazirliyi tərəfindən başladılan "Təhlükəsiz hotel sertifikatı" layihəsinin uğuru ilə canlanan turizm sektoru üzrə yeni ildə hədəflərin yüksəlməsi planlaşdırılır.

# Abdulla Şaiqin şeirləri alman dilində...

Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində şair və yazıçılarımızın yaradıcılığının müxtəlif dillərdə təqdimatı davam edir.




Almaniyanın "LiteratPro" ədəbiyyat portalında görkəmli Azərbaycan şairi, maarifçi ədib Abdulla Şaiqin alman dilinə tərcümə olunmuş "Əsrimizə xitab", "Hamımız bir günəşin zərrəsiyik" və "İrəli" şeirləri dərc olunub.

Geniş oxucu auditoriyası tərəfindən izlənən "LiteratPro" ədəbiyyat portalı mütəmadi olaraq dünya ədəbiyyatından nümunələr yayımlayır, məşhur yazıçı və şairlərin yaradıcılığını işıqlandırır.

# Nizami Gəncəvi yaradıcılığı isə Rumıniya portalında

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin rumın dilinə tərcümə edilmiş kəlamları, həyat və yaradıcılığı haqqında məlumat isə Rumıniyanın "news24hours.ro" portalında yayımlanıb.



Qüdrətli söz ustadının irsindən seçmələr ötən il Azərbaycanda elan olunmuş "Nizami Gəncəvi İli" ilə əlaqədar rumın dilinə tərcümə edilib. Tərcümənin müəllifi Rumın Dili və Mədəniyyəti Mərkəzinin rəhbəri İosefina Blazsani-Battodur.

# "Xəmsə"nin özbək dilinə tərcüməçisi təltif olunub

Nizami Gəncəvinin "Xəmsə"sini özbək dilinə tərcümə etmiş Özbəkistanın Xalq şairi Camal Kamal Azərbaycan Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi" xatirə nişanı ilə təltif edilib. "Xəmsə"nin özbək dilinə tərcüməsi Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə gerçəkləşib.



AMM-in direktoru Samir Abbasov şairi evində ziyarət edib. O, Camal Kamalın dahi Nizami Gəncəvi irsinin təbliğinə töhfəsinin ölkəmizdə yüksək qiymətləndirildiyini bildirib və Azərbaycanın mədəniyyət naziri Anar Kərimovun müvafiq əmrinə əsasən, şairin xatirə nişanı ilə təltif edildiyini diqqətə çatdırıb.

Samir Abbasov ilin yekunları ilə bağlı Özbəkistanda keçirilmiş müsabiqənin qalib diplomunu da Camal Kamala təqdim edib. Camal Kamalın tərcümə etdiyi "Xəmsə" Özbəkistanda AMM-in hər ilin yekunları ilə bağlı keçirdiyi "İlin ən gözəl tərcümə əsəri" və "İlin ən yaxşı ədəbiyyat layihəsi" nominasiyaları üzrə xüsusi diplom və pul mükafatına layiq görülüb.

Qeyd edək ki, Nizaminin özbək dilinə tərcümə olunmuş "Xəmsə"sinin Özbəkistanda, eləcə də ötən ilin 25 noyabrında Bakıda, Nizami Gəncəvi Beynəlxalq Forumu çərçivəsində geniş təqdimat mərasimi keçirilib.

# İstanbulda azərbaycanlı rəssamın sərgisi

İstanbulda UNESCO-nun nəzdində fəaliyyət göstərən Dünya Rəssamlar İttifaqının üzvü Nərminə Nəcəfovanın sərgisi açılıb.



Rəssamın ilk fərdi sərgisində 34 əsəri nümayiş olunub. Türkiyədə Esmira Gül, həmçinin qardaş ölkədə fəaliyyət göstərən Rafiq Əziz kimi tanınmış rəssamlardan dərs alan Nərminə Nəcəfova deyib: "Uzun zamandır sərgi açmaq istəyirdim. Hər bir əsərimi çox sevirəm. Onları nümayiş etdirmək, insanlara təqdim etmək çoxdankı arzum idi. Azərbaycanda, o cümlədən doğma Qarabağda da sərgi keçirmək arzusundayam. Müəllimlərim mənə çox dəstək oldular. Onlara sonsuz təşəkkür edirəm".

Sərgidə iştirak edən Rafiq Əziz Nərminə Nəcəfovaya Dünya Rəssamlar İttifaqının üzvlük vəsiqəsini təqdim edib.

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**
**MƏDƏNİYYƏT**
**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 38
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.